31 avqust 2022 №63-64 (1937)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan-Türkiyə birliyinin dünyada bənzəri yoxdur



Xüsusi qürur hissi ilə qeyd edə bilərik ki, "Bir millət – iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur. Dövlətlərarası münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Bu sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 Avqust – Zəfər Bayramının 100-cü ildönümü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana göndərdiyi təbrik məktubunda vurğulanır.

Zəfər Bayramının 100-cü ildönümü münasibətilə qardaş Türkiyə rəhbərliyinə və xalqına ən xoş arzularını ifadə edən dövlət başçısının məktubunda qeyd olunur ki, yüz il əvvəl Qazi Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılmış şanlı qələbə türk xalqının qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir.

*davamı səh. 2-də*

## "Brüssel formatı"nda dördüncü görüş

Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi çərçivəsində Avropa İttifaqının təşkilatçılığı ilə növbəti görüş avqustun 31-də Brüsseldə keçiriləcək.

*səh. 2*

## Azad edilmiş ərazilərdə Dünya Bankı ilə müştərək layihələr həyata keçirilə bilər

Mədəniyyət naziri Anar Kərimov Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl ilə görüşüb.

Vətən müharibəsində Azərbaycan torpaqlarının Ermənistanın otuzillik işğalından azad edildiyini deyən Anar Kərimov Mədəniyyət Nazirliyinin Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasında Dünya Bankı ilə birgə müştərək layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirib.

*səh. 3*

## "Qardaşlıq dastanı" dünya turuna Bakıdan başlayır




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Yunus Əmrə İnstitutunun Bakıdakı filialının dəstəyi ilə "Qardaşlıq dastanı" adlı teatral rəqs nümayişi layihəsi həyata keçiriləcək.

Serhat Turakın bədii rəhbərliyi, "Alagöz Kültür-Sanat"ın istehsalı və "Umya Az" MMC-nin (Umya Medya-Türkiyə) rəsmi təşkilatçılığı ilə layihə dünya turuna çıxmağa başlayır. Tədbir 29-31 oktyabr tarixində Bakıda – Heydər Əliyev Sarayında, 2 və 3 noyabr tarixlərində isə Gəncə Dövlət Filarmoniyasında baş tutacaq.

*davamı səh. 2-də*

# Mədəniyyət ocaqlarının işi günün tələblərinə cavab verirmi?

### Nazir Anar Kərimov Qazaxda müəssisələrin fəaliyyəti ilə tanış olub

Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi ilə bağlı görülən kompleks tədbirlərin mühüm bir istiqaməti də regionlardakı mədəniyyət müəssisələrində işin effektivliyinin artırılmasıdır. Mədəniyyət naziri Anar Kərimov bu məqsədlə bölgələrə müntəzəm səfər edərək yerlərdə müəssisələrin fəaliyyəti ilə tanış olur, mədəniyyət işçiləri ilə görüşlər keçirir, müvafiq tapşırıqlar verir.



Nazir Anar Kərimov avqustun 30-da Qazax rayonuna səfər edib.

Anar Kərimov və rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov əvvəlcə Qazax şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

Nazir və icra başçısı rayondakı bir sıra mədəniyyət müəssisələrinə, tarixi abidələrə baxış keçiriblər.

Qazaxdakı Heydər Əliyev Mərkəzi ilə tanışlıq zamanı 2008-ci ildən fəaliyyət göstərən müəssisənin fəaliyyəti barədə məlumat verilib. Nazir mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və eksponatlara baxıb.

Sonra Qazax Dövlət Rəsm Qalereyasına baxış keçirilib. Bildirilib ki, 1986-cı ildən fəaliyyət göstərən qalereyanın ümumi fondunda 574 eksponat var. Onlardan 70-i sərgi salonunda nümayiş olunur.

Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbinə gələn Anar Kərimova məlumat verilib ki, təhsil ocağı 2020-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən əsaslı təmir olunub. Məktəbdə fortepiano, skripka, tar, kamança, qarmon, saz sinifləri fəaliyyət göstərir, 221 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 59 müəllim məşğul olur.

Mədəniyyət naziri şəhərdəki "Azərbaycan" kinoteatrının binasının vəziyyəti ilə də tanış olub. Qeyd olunub ki, 1965-ci ildə tikilən binada 600 nəfərlik böyük və 50 nəfərlik kiçik zal var.

*davamı səh. 2-də*

## Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı keçiriləcək

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə imzaladığı müvafiq fərmana uyğun olaraq, ölkəmizdə 18 sentyabr – dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü musiqi bayramı – "Üzeyir musiqi günü" kimi qeyd edilir.

Hər il bu əlamətdar gün münasibətilə respublikamızda silsilə tədbirlər – konsertlər, sərgilər təşkil olunur. 2009-cu ildən etibarən isə sentyabr ayında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı keçirilir. Ənənəvi olaraq 18 sentyabrda başlanan festivalda görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirlər.

Bu il də Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalının keçirilməsi planlaşdırılır. 18-26 sentyabr tarixini əhatə edəcək festival üçün xüsusi konsepsiya işlənib hazırlanıb. Builki festivalın proqramı xüsusilə zəngindir və musiqisevərlərin könlünü oxşayacaq.

*davamı səh. 2-də*




## Mədəniyyətlərin mübadiləsi üçün gözəl fürsət

Xəbər verdiyimiz kimi, 26 avqust – 5 sentyabr tarixlərində "Şuşa və Bakıda gənclərin incəsənət düşərgəsi" (Youth ArtCamp Shusha and Baku) adlı beynəlxalq layihə həyata keçirilir. Avqustun 28-də Şuşada ölkəmizdən və xaricdən bir qrup yaradıcı insanın iştirakı ilə layihəyə həsr olunmuş mətbuat konfransı oldu.

Mətbuat konfransını açıq elan edən Azərbaycan Respublikası UNESCO üzrə Milli Komissiyasının ikinci katibi Emil Əhmədov diqqətə çatdırdı ki, "ArtCamp" UNESCO-nun layihəsi olaraq xalqların öz mədəniyyətini, tarixi abidələrini dünyada təbliğ etmək məqsədilə həyata keçirilir.




Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası, ölkəmizin İspaniyadakı səfirliyi və Andorranın UNESCO üzrə Milli Komissiyası nümayəndələrinin təşkilatçılığı ilə ərsəyə gələn layihədə iştirakçılara respublikamızdakı bütün tarixi abidələri ziyarət etmək imkanı yaradılır.

UNESCO-nun mədəni diplomatiya üzrə xoşməramlı səfiri, tanınmış heykəltəraş xanım Hedva Serin himayəsi ilə baş tutan beynəlxalq layihənin əsas məqsədi xarici rəssamların yaratdığı əsərlərin nümayiş olunması ilə yanaşı, təşkilatın fundamental dəyərlərini, o cümlədən davamlı sülhü, mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqini təbliğ etməkdir.

*davamı səh. 3-də*

## Saralmış not yazıları, ağ-qara şəkillər və ölməz bəstəkardan xatirə

Onun musiqi mədəniyyətimizdə yeri və rolu müstəsnadır. Xalqına, onun musiqisinə sehrli tellərlə bağlı olan və bütün yaradıcılığında xalq musiqisini "tükənməz ilham mənbəyi, sənətkara qüvvət verən dirilik çeşməsi" adlandıran böyük Fikrət Əmirovu bir daha xatırlayacağıq.

Məlum olduğu kimi, bəstəkarın yubileyi ilə bağlı ölkə başçısı müvafiq sərəncam imzalayıb. Fikrət Əmirovun 100 illiyi UNESCO-nun cari yubileylər proqramına da daxil edilib. Dövlətimiz və xalqımız Fikrət Əmirov yaradıcılığına, onun xalqın ruhundan mayalanan musiqi irsinə daim rəğbət və ehtiram bəsləyir. Bəstəkarın zəngin yaradıcılığı – "Sevil" operası, "Şur", "Kürd-ovşarı", "Gülüstan-Bayatı-Şiraz" simfonik muğamları, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Min bir gecə", "Nizami", "Nəsimi dastanı" baletləri, instrumental konsertləri, vokal əsərləri təkcə Azərbaycanın deyil, dünya musiqi xəzinəsinin dəyərli nümunələridir.

Əbədi ömürlüyünün 100-cü ilində yenə ölməz əsərləri ilə bizlərə ilham verən Fikrət Əmirovun irsi onun xatirə əşyalarında da yaşayır. Məqalələrinin birində "Xalq üçün yazıb-yaratmaq, onunla birlikdə nəfəs alıb işləmək sənətkar üçün ən böyük




səadətdir" deyən bəstəkardan yadigar qalan not əlyazmaları, redaktəsindən keçən müxtəlif musiqi əsərlərinin not surətləri və hələ sağlığında muzey fonduna təqdim etdiyi şəxsi kitabxanasından nümunələrlə tanış olmaq qərarına gəldik.

Bu məqsədlə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə yollandıq. Muzeyin baş mühafizi Sevinc Əliyeva və aparıcı elmi işçisi Raminə Məmmədovanın bələdçiliyi ilə bəstəkarın muzey fondunda saxlanılan arxiv-memuar fondu ilə tanış olduq.

*davamı səh. 7-də*

## TÜRKSOY-un "Rəssamlar görüşü" başa çatıb

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un ənənəvi layihələrindən olan "Rəssamlar görüşü"nə bu il Türkiyənin Safranbolu şəhəri (Karabük vilayəti) ev sahibliyi edib.

Sayca 22-ci yaradıcılıq emalatxanası TÜRKSOY-un və Safranbolu Bələdiyyəsinin birgə təşkilatçılığı ilə avqustun 16-dan 27-dək davam edib. Türk dünyasının müxtəlif yerlərindən təsviri sənət ustalarını bir araya gətirən yaradıcılıq görüşünün yekunu olaraq rəssamların bu müddətdə çəkdikləri əsərlərin sərgisi açılıb.

*davamı səh. 8-də*

Uşaqlığın havası var başımda...

*səh. 5*

Şuşada yaradıcılıq emalatxanası
Layihəyə Azərbaycanın və Türkiyənin yaradıcı insanları qatılıb
*səh. 4*


Mədəniyyət və mətbəximiz Moskvada nümayiş olunub
*səh. 5*

№63-64 (1937)
31 avqust 2022
www.medeniyyet.az

# Azərbaycan-Türkiyə birliyinin dünyada bənzəri yoxdur

*əvvəli səh. 1-də*

"Türkiyənin müstəqillik və istiqlaliyyət mübarizəsi salnaməsinə qızıl hərflərlə həkk olunmuş bu böyük zəfər xalqınızın sarsılmaz iradəsinin, yenilməzliyinin, birliyinin və şücaətinin bariz nümunəsidir. Vətənlərinin azadlığı və müstəqilliyi yolunda mərdlik və rəşadət göstərmiş, canlarını vermiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Möhtəşəm zəfərdən ötən bir əsr sonra bu gün qardaş Türkiyə Sizin rəhbərliyiniz ilə hərtərəfli inkişaf edən, güclü və qüdrətli bir ölkəyə çevrilmişdir. Dünyada və regionda baş verən mürəkkəb proseslərdə qətiyyətli və prinsipial mövqeyi, sülhün, haqq-ədalətin bərqərar olması üçün ardıcıl səyləri ilə Türkiyə beynəlxalq aləmdə nüfuz qazanmışdır. Ölkənizin bütün sahələrdə əldə etdiyi uğurları bizi olduqca fərəhləndirir", – deyə məktubda vurğulanır.

Azərbaycan Prezidenti məktubda əmin olduğunu bildirib ki, tarixən bir-birinə dəstək və dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

# Mədəni əlaqələrin inkişafında xidmətlərinə görə

Prezident İlham Əliyev avqustun 30-da Özbəkistan Respublikasının mədəniyyət xadimlərinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Haşimjon İsmayılov, Əli Heydər oğlu Nəsirli, Kamoliddin Turdimuratoviç Urinbayev "Dostluq" ordeni ilə təltif ediliblər.

Dövlət başçısının digər sərəncamı ilə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Nəsibə Məlikovna Abdullayevaya "Xalq artisti" fəxri adı verilib.

Özbəkistanın tanınmış müğənnisi Nəsibə Abdullayeva ötən əsrin 80-90-cı illərindən Azərbaycanda da populyarlıq qazanıb. Repertuarında məşhur Azərbaycan mahnılarına xüsusi yer ayıran sənətçi ölkəmizdə konsert proqramları ilə çıxış edib. Müğənni 1993-cü ildən Özbəkistanın Xalq artistidir.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şafkat Mirziyoyevin sərəncamı ilə azərbaycanlı müğənni, Xalq artisti Gülyanaq Məmmədova Özbəkistanın Xalq artisti adına layiq görülüb. Bu barədə sənətçinin özü məlumat verib.

# "Brüssel formatı"nda dördüncü görüş

Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi çərçivəsində Avropa İttifaqının təşkilatçılığı ilə növbəti görüş avqustun 31-də Brüsseldə keçiriləcək.



Görüş ərəfəsində, avqustun 30-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Brüsseldə keçiriləcək görüşün gündəliyinə aid məsələlər müzakirə olunub.

Qeyd edək ki, avqustun 27-də xarici diplomatik korpus nümayəndələrinin iştirakı ilə Şuşada keçirilən konfransda çıxışı zamanı Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan tərəfi növbəti Brüssel görüşündə Ermənistanla sülh sazişinin mətninin hazırlanması ilə bağlı işçi qrupunun təşkilinin razılaşdırılacağına ümid edir. Prezidentin köməkçisi daha əvvəl Brüsseldə keçirilən görüşdə sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın (Azərbaycan və Ermənistanın Baş nazirlərinin müavinləri səviyyəsində) yaradılması haqqında razılıq əldə olunduğunu xatırladıb.

Qeyd edək ki, Avropa İttifaqının təşkilatçılığı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında ilk görüş 2021-ci ilin dekabrında keçirilib. Avqustun 31-də "Brüssel formatı"nda sayca dördüncü görüş olacaq.

# Xaricdə yaşayan soydaşlarımız üçün dəyərli vəsait

Azərbaycan Diasporuna Dəstək Fondunun təşəbbüsü və maliyyəsi ilə "Azərbaycan musiqisinin inciləri" adlı kitab nəşr olunub.




Fonddan bildirilib ki, Azərbaycan Respublikasının Himni ilə başlayan, xalq və bəstəkar mahnılarından ibarət bu kitab Azərbaycan və ingilis dillərində tərtib edilib. 50 xalq və 32 bəstəkar mahnısının sözləri və notlarının qeyd olunduğu bu kitab xaricdə yaşayan, orada doğulub boya-başa çatmış soydaşlarımızın milli vətənpərvərlik ruhunda yetişməsinə, mədəniyyətimizin təbliğinə, soydaşlarımızın professional səviyyədə musiqi biliklərinin artmasına töhfə verəcək.

Kitabda həmçinin Azərbaycanın görkəmli bəstəkarları və müxtəlif xalq mahnıları haqqında ətraflı məlumat öz əksini tapıb.

Kitab Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəylinin ön sözü ilə nəşr olunub.

"Azərbaycan musiqisinin inciləri" kitabı xaricdə yaşayan soydaşlarımız, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları və Azərbaycan evləri ilə yanaşı, həmin ölkələrdə musiqi təhsili verən ali təhsil ocaqlarının kitabxanaları üçün də qiymətli vəsait olacaq.

# Mədəniyyət ocaqlarının işi günün tələblərinə cavab verirmi?

## Nazir Anar Kərimov Qazaxda müəssisələrin fəaliyyəti ilə tanış olub

*əvvəli səh. 1-də*

Anar Kərimov Qazaxda Molla Pənah Vaqif və Molla Vəli Vidadinin Xatirə Muzeyinə də baş çəkib. 1970-ci ildə açılan muzeydə 1235 eksponat qorunur. Muzeydə görkəmli şairlər M.P.Vaqif və M.V.Vidadinin dövrünə (XVIII əsr) aid məişət və bəzək əşyaları, paltarlar, silahlar və s. nümayiş olunur.

Qazax şəhərində Ədəbiyyat Muzeyi də fəaliyyət göstərir. Muzeyin üçmərtəbəli binası 2013-cü ildə istifadəyə verilib. Muzeyin yerləşdiyi parkda Qazaxdan olan görkəmli şəxsiyyətlərin büstləri ucaldılıb. Nazir muzeylə tanış olub.

Anar Kərimov Qazax şəhərinin mərkəzində yerləşən yerli əhəmiyyətli memarlıq abidələrinə – Cümə məscidi (XX əsr) və məscidin qarşısında yerləşən İsrafil ağa hamamına (XX əsr) da baxış keçirib, binada aparılan təmir-bərpa işləri ilə tanış olub.

Məlumat verilib ki, məscid və hamam rayonun Qıraq Kəsəmən kənd sakini, xeyriyyəçi sahibkar İsrafil ağa Kərbəlayev (1866-1917) tərəfindən inşa etdirilib. Hamamın binası memar Müzəffər Hüseynovun layihəsi əsasında qırmızı kərpicdən hörülüb. Plan quruluşuna görə Şərq və Avropa memarlığının elementlərini özündə cəmləşdirən tikiliyə Azərbaycanın digər bölgələrində rast gəlinmir. O da bildirilib ki, İsrafil ağa hamamı Nazirlər Kabinetinin 25 fevral 2022-ci il tarixli sərəncamı ilə Mədəniyyət Nazirliyinin balansına verilib.






Sonra nazir Qazax Tarix-Diyarşünaslıq Muzeyinə gəlib. Bildirilib ki, 1984-cü ildə yaradılan muzeyin 2016-cı ildə yeni binası istifadəyə verilib. Muzeyin yenidən qurulmuş ekspozisiyası iki mərtəbədə yerləşdirilib. Muzeydə 2910 eksponat (o cümlədən 102-si daimi ekspozisiyada) qorunub saxlanılır.

Mədəniyyət naziri daha bir yerli əhəmiyyətli memarlıq abidəsinə – Qazax Müəllimlər Seminariyasının (XX əsr) binasına da baş çəkib, burada aparılan təmir-bərpa işləri ilə maraqlanıb. Qeyd edək ki, görkəmli ədəbiyyatşünas, tanınmış maarifpərvər və ictimai xadim Firidun bəy Köçərlinin rəhbərliyi ilə fəaliyyətə başlayan Qazax Müəllimlər Seminariyası bütün fənlərin tədrisinin ana dilində mütərəqqi üsullarla aparıldığı yeni təhsil ocağı kimi Azərbaycanda elmin, maarifin və mədəniyyətin inkişafına misilsiz töhfələr verib.

Anar Kərimov Qazaxın qəhrəman oğullarının uyuduğu Şəhidlər xiyabanını da ziyarət edib, Vətən uğrunda canından keçən igid oğulların xatirəsinə dərin ehtiramını bildirib.

Mədəniyyət nazirinin respublikanın qərb bölgəsinə səfəri davam edir.

Anar Kərimov avqustun 31-də Ağstafa rayon Heydər Əliyev Mərkəzində Ağstafa, Qazax və Tovuz rayonlarından olan vətəndaşların qəbulunu da keçirəcək. Nazir Ağstafa rayonunda mədəniyyət müəssisələrinin fəaliyyəti ilə də tanış olacaq.

# Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı keçiriləcək

*əvvəli səh. 1-də*

Festivalın əsas proqramı ilə yanaşı, "Üzeyir ənənəsinin sönməyən ulduzları" adı altında bu il yubileyləri olan musiqi xadimlərinə həsr olunan proqram və "Üzeyir sənətinin gənclik sədaları" adı altında gənclik proqramı da tərtib edilib.

Bu il Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Şuşa İli", habelə Fikrət Əmirovun 100 illiyi dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə festival çərçivəsində Şuşa şəhərində bir neçə tədbirin təşkili, eyni zamanda ölkəmizin digər şəhər və bölgələrində – Gəncə, Bərdə, Ağcabədidə konsert və tamaşaların nümayişi planlaşdırılıb.

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalına müxtəlif ölkələrdən solistlər, dirijorlar, kollektivlər dəvət olunub. Festivalda ABŞ, Norveç, Fransa, Avstriya, Almaniya, Türkiyə, Yunanıstan, Qazaxıstan, Bolqarıstan, Macarıstan, Rusiya, Yaponiya, Cənubi Koreya, Almaniya və Gürcüstandan musiqiçilərinin iştirakı gözlənilir.

# "BBC World"da "Azərbaycan möcüzələri"

Tarixçi, yazıçı, aparıcı və məşhur "Dünya xəzinələri" sənədli filmlər silsiləsinin ssenari müəllifi və təqdimatçısı Bettani Hyuzun (Bettany Hughes) Azərbaycanın tarixi və mədəni xəzinələri barədə filmi "BBC World News" telekanalında nümayiş olunur.

Heydər Əliyev Fondu və "BP Azərbaycan" şirkətinin tərəfdaşlığı ilə hazırlanan film Böyük Britaniyanın "SandStone Global" prodakşn şirkəti tərəfindən Bakı Media Mərkəzinin dəstəyi çərçivəsində ərsəyə gəlib.

Müəllif "Azərbaycan möcüzələri" ekran əsərinin araşdırmaları və çəkilişləri üçün iyun ayında ölkəmizə səfər etmişdi.

İki hissədən ibarət filmdə Bakı, Şuşa, Qobustan və Şəkinin əfsanəvi və heyranedici tarixi və mədəni irs xəzinələri araşdırılıb və



təqdim olunub. "İpək Yolu" filmi Qobustan və Şəki, "Odlar Yurdu" adlı film isə Bakı və Şuşaya həsr olunub. İkinci bölüm avqustun 27-28-də "BBC World News" kanalında yayımlanıb.

Filmin Azərbaycan dilində versiyası hazırlanaraq təqdim ediləcək.

# "Qardaşlıq dastanı" dünya turuna Bakıdan başlayır

*əvvəli səh. 1-də*

Bu layihə 6 illik araşdırma və 18 aylıq səhnə məşqlərindən sonra 100-dən çox türkiyəli və azərbaycanlı rəqqas və teatr aktyorunun zəhməti ilə səhnələşdirilən möhtəşəm tarixi povesti ilə mədəni, epik və sənət əsəridir. Qədim türk, Azərbaycan tarixi və mifologiyası, Nuh tufanından Qarabağ savaşına qədər Anadolu və Qafqaz xalqlarının mübarizəsi, həmrəyliyi, həyat sevgisi, sevinc və kədəri, bir sözlə, Azərbaycan və Türkiyə xalqlarının sarsılmaz qardaşlığı simvolik olaraq səhnəyə gətirilib.

"Qardaşlıq dastanı" layihəsi 2 pərdə və 12 səhnədən ibarətdir. İlk dəfə 2021-ci ildə Türkiyədə səhnəyə qoyulub və İstanbul, Ankara, İzmir, Konya və bir çox digər böyük şəhərlərdə nümayiş olunub. "Umya Medya" və "Umya Az"ın rəsmi təşkilatçılığı ilə 2022-ci ildə dünya turuna çıxacaq ansamblın ilk dayanacağı Azərbaycan səhnəsi olacaq. Azərbaycandan sonra sənət turu Almaniya, Şimali Avropa, Meksika, Özbəkistan, Qazaxıstan, Dubay, Misir, Qətər və Çində 2023-cü ilin sonuna qədər davam etdiriləcək.

# Samsundakı "Teknofest"də Şuşaya videosəyahət təqdim olunur

Avqustun 30-da Türkiyənin Samsun şəhərində "Teknofest – 2022" Aerokosmik və Texnologiya Festivalının rəsmi açılışı olub.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz festivalda 300 kvadratmetr ərazini əhatə edən milli pavilyonla təmsil olunur.

Bu ilin mayında Bakıda gerçəkləşən "Teknofest Azərbaycan"ın qalibi olmuş 16 komanda Samsun şəhərindəki festivala qatılır və layihələrini ziyarətçilərə təqdim edir.

Tədbirdə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rövşən Rüstəmovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir.

Milli pavilyonda AR (Artırılmış Reallıq) sual divarı, TRİFT – VR



(Virtual Reallıq) hərbi atış simulyatoru, AR "Dron yarışı" simulyatoru, "Smart Qarabağ" haqqında təqdimat nümayiş olunur.

Ziyarətçilərə həmçinin "VR 360 Shusha view" binoklu ilə Qarabağın incisi olan Şuşa şəhərinə VR videosəyahət təqdim edilir.

"Teknofest – 2022" Aerokosmik və Texnologiya Festivalı sentyabrın 4-dək davam edəcək.

Qeyd edək ki, "Teknofest" Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi ilə Selçuk Bayraktarın rəhbərlik etdiyi Türkiye Teknoloji Takımı Vakfının (T3 Vakfı) birgə təşkilatçılığı, qardaş ölkənin 60-dan çox dövlət qurumu, ali məktəbi və özəl şirkətinin tərəfdaşlığı ilə 2018-ci ildən etibarən hər il keçirilir.

26-29 may 2022-ci il tarixində "Teknofest" ilk dəfə Türkiyədən kənarda – Azərbaycanda keçirilib.

# Sərhədin delimitasiyası Moskvada müzakirə edilib

Avqustun 30-da Moskvada Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın ikinci iclası keçirilib.

Xarici İşlər Nazirliyindən verilən xəbərə görə, iclasdan öncə Rusiya Federasiyası Hökuməti sədrinin müavini A.Overçuk həmkarları Ş.Mustafayev və M.Qriqoryan ilə görüşüb və komissiyaların işinin davam etdirilməsini alqışlayıb.

Tərəflər təşkilati və prosedural məsələləri müzakirə edib, komissiyaların gələcək işi və birgə fəaliyyətinin reqlamenti üzrə predmetli fikir mübadiləsi aparıblar. Görüşün yaxşı təşkilinə görə Rusiya tərəfinə minnətdarlıq ifadə edilib. Üçüncü görüşün razılaşdırılmış vaxtda keçirilməsinə dair razılıq təsdiqlənib.



# Azad edilmiş ərazilərdə Dünya Bankı ilə müştərək layihələr həyata keçirilə bilər

Mədəniyyət naziri Anar Kərimov avqustun 25-də Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl ilə görüşüb.



Qonağı salamlayan Anar Kərimov Azərbaycan ilə Dünya Bankı arasında əlaqələrin yüksək templə inkişaf etdiyini və bütün istiqamətlərdə olduğu kimi, mədəniyyət sahəsində də əməkdaşlığın vacibliyini vurğulayıb.

2020-ci ilin Vətən müharibəsində Azərbaycan torpaqlarının Ermənistanın otuzillik işğalından azad edildiyini qeyd edən Anar Kərimov Mədəniyyət Nazirliyinin Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasında Dünya Bankı ilə birgə müştərək layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirib.

Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası haqqında məlumat verən nazir deyib ki, çağırışın əsas məqsədi postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhün təmin edilməsidir. Bu çağırış həm də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud vəziyyətin, dağıdılmış infrastrukturun və mədəniyyətə qarşı törədilmiş vandalizmin dünyaya çatdırılması məqsədi daşıyır. O, Dünya Bankının bu qlobal kampaniyaya dəstək verməsinin əhəmiyyətli olacağını diqqətə çatdırıb.

Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl səmimi qəbula görə nazirə təşəkkürünü bildirib. Dünya Bankının mədəniyyətin inkişafı istiqamətində birgə layihələrin həyata keçirilməsində hər zaman hazır olduğunu qeyd edib.

Sara Maykl "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasının həyata keçirilməsini yüksək qiymətləndirib və Dünya Bankının da bu təşəbbüsə qoşulmaqda maraqlı olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də nəzərdən keçirilib.

Sonda nazir Dünya Bankının təmsilçisinə "Qarabağ işğaldan öncə və sonra" kitab-albomunu təqdim edib.

# Mədəniyyətlərin mübadiləsi üçün gözəl fürsət

## Şuşada və Bakıda gənclərin incəsənət düşərgəsi





*əvvəli səh. 1-də*

"Şuşa və Bakıda gənclərin incəsənət düşərgəsi" layihəsi xarici rəssamların Azərbaycanın tarixi məkanlarından və təbiətindən ilhamlanaraq öz əsərlərini yaratması məqsədilə təşkil olunub.

Mədəniyyət Nazirliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin nümayəndəsi Murad Məmmədov layihənin məqsədi və əhəmiyyətindən danışdı. Qeyd etdi ki, layihə 2008-ci ildən Andorranın UNESCO üzrə Milli Komissiyasının nümayəndəliyi tərəfindən yaradılıb. Murad Məmmədov Hedva Ser və UNESCO üzrə Andorra Milli Komissiyasının katibi Jan Mişel Armenqolun təşkilatçı və iştirakçılara minnətdarlığını çatdırdı. Həmçinin qeyd edildi ki, UNESCO üzrə milli komissiyaların təqdim etdiyi namizədlər arasından münsiflər heyəti tərəfindən 16 gənc rəssam seçilərək layihəyə cəlb edilib. Namizədlər Azərbaycan, Türkiyə, ABŞ, Kuba, Belarus, Qazaxıstan, İran və digər ölkələri təmsil edirlər.

Əməkdar rəssam Əsmər Nərimanbəyova ötən il Andorrada keçirilən eyniadlı layihədə iştirak etdiyini söylədi. Bildirdi ki, Azərbaycan uzun illər Ermənistan işğalında qalan torpaqlarını azad edib. 30 illik erməni işğalı dövründə yüzlərlə tarixi abidəmiz dağıdılıb. Layihənin iştirakçıları Ağdamı ziyarət edib və oradakı dağıntıları öz gözləri ilə görüblər: "İnanıram ki, onların təəssüratı rəsmlərdə də əksini tapacaq. "ArtCamp" mədəniyyətlərin mübadiləsi üçün də gözəl fürsətdir. Bu layihə Azərbaycanı dünyada tanıtmaq üçün çox vacibdir".

Daha sonra iştirakçılar mətbuat nümayəndələrini maraqlandıran sualları cavablandırdılar.

Diqqətə çatdıraq ki, layihə çərçivəsində gənc rəssamların əsərlərindən ibarət kataloqun hazırlanması və xarici ölkələrdə yayımlanması, həmin əsərlərin sərgisinin keçirilməsi nəzərdə tutulur.

***

### "İşğaldan azad olunmuş ərazilərə qayıdış üçün hər kəs ürəklə çalışır"

Mətbuat konfransından sonra beynəlxalq layihənin iştirakçısı olan rəssamların ilkin təəssüratlarını öyrəndik.

Əməkdar rəssam **Əsmər Nərimanbəyova**:

– Layihə çərçivəsində Ağdama səfərimiz böyük təəssürat yaratdı. Bu dağıntılar, erməni vandalizmi qonaqları təsirləndirmişdi. Mən ötən il bu layihənin iştirakçısı kimi Andorrada oldum. Layihə, həqiqətən də, təcrübə mübadiləsinə, müxtəlif ölkələrin mədəniyyəti ilə tanışlığa yönəlib. Çox şadam ki, bu il tədbir Qarabağın incisi Şuşada keçirilir. Layihə Qarabağımızın, Şuşa şəhərinin mədəni-tarixi irsinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. 16 ölkədən gənclər bir araya toplanıb. Onların ölkəmiz haqqında fikir və düşüncələrini bilmək də bizim üçün maraqlıdır. Ağdama səfərimiz zamanı biz şəhərin əvvəlki görkəminin əks olunduğu fotoşəkilləri iştirakçılara nümayiş etdirdik. İndi gördükləri onları, sözün əsl mənasında, heyrətə saldı. Məndə artıq bir neçə ideya yaranıb. Yəqin ki, yaxın vaxtlarda bu əsərlərlə sizlər də tanış ola biləcəksiniz. Onu da xatırladım ki, şərtlərə görə, hər rəssam üç əsər yaradır və bu əsərlər layihənin təşkil edildiyi ölkədə saxlanılır.

**Zarina Çukitayeva** (Qazaxıstan):

– Əvvəlcə Ağdamda olduq. Eyni zamanda bu gün Şuşadayıq. Bu ideyanı dəstəkləyirəm və əlamətdar bir fəaliyyət olaraq dəyərləndirirəm. Layihə bir sıra ölkələrdən gənc rəssamları bir araya gətirib və bu, təcrübə mübadiləsi eyni zamanda müxtəlif mədəniyyətlərlə tanışlıq baxımından önəmlidir.

**Nərgiz Quliyeva** (Azərbaycan):

– Bu beynəlxalq layihənin gerçəkləşdirilməsi tarixi və mədəni irsimizin təbliğatı baxımından çox vacibdir. Layihənin iştirakçıları olan müxtəlif ölkələrdən gələn rəssamlar Azərbaycanın mədəniyyəti, incəsənəti və tarixinə böyük maraq göstərirlər. Onlar Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini görəndə çox təsirləndilər və erməni vandallığının şahidi oldular. Biz bu ərazilərdə əsərlər yaratmaqla bərabər, həm də xaricdən gələn rəssamlara tariximiz, mədəniyyətimiz haqqında məlumat verir, onları maraqlandıran sualları cavablandırırıq. Hələ ki, eskizlər edirik, sonra isə yəqin bu eskizlər üzərində daha dolğun və baxımlı əsərlər meydana gələcək.

**Alper Bakıcı** (Türkiyə):

– Ankaradan gəlmişəm. Dünən Ağdama səfər etdik, Azərbaycan Ordusunun 44 günlük müharibədə düşmən tapdağından azad etdiyi torpaqları gördük. Biz o şanlı müharibəni çox böyük həyəcanla izləyirdik və qardaş Azərbaycanın qələbəsinə inanırdıq. Ona görə ki, qardaşlarımızın müharibəsi haqq müharibəsi idi. Şükürlər olsun ki, bizim dualarımız qəbul olundu və arzularımız reallaşdı. Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoyuldu, haqq öz yerini tapdı. Bizə də bu yerləri gəlib görmək nəsib oldu. Ağdamda gördüyüm bu vəhşilik məni çox təsirləndirdi.

Şuşanın havası çox gözəldir. Duyğularımı ifadə edə bilmirəm. Burada xoşbəxtəm və düşməndən azad edilən torpaqlarda azərbaycanlı qardaşlarımın sülh içində yaşaması ən böyük arzularımızdan biridir. Biz illərdir Türkiyədə Xocalı faciəsi ilə bağlı tədbirlər təşkil edirdik. Bu gün çox qürurluyam. Özümü evimdəki kimi hiss edirəm. Şəhidlərimizə rəhmət diləyirəm. Layihə çərçivəsində ərsəyə gətirəcəyim üç əsərimi isə Azərbaycan Mədəniyyət Nazirliyinə və Türkiyənin Azərbaycandakı Səfirliyinə hədiyyə etmək istəyirəm.

**Lisandra Garcia Lopez** (Kuba):

– Azərbaycanın işğaldan azad edilmiş əraziləri bizi çox təsirləndirir. Bu qədər dağıntı bizi məyus edir. Yolboyu burada quruculuq işlərinin davam etdiyini, bu ərazilərdə yaşayışın yenidən qayıdışına hər kəsin ürəklə çalışdığının şahidi olduq. Bizə səfər edəcəyimiz ərazilərin müharibədən əvvəlki fotoları göstərilir. Müqayisə məndə böyük təəssürat və təəssüf hissi yaradır.

**Lalə Azəri**

# Qətərdə Leyla Əliyevanın kitabının təqdimatı olub

Azərbaycan Respublikasının Qətər Dövlətindəki Səfirliyi və "Katara" Mədəniyyət Şəhərciyi Fondunun təşkilatçılığı ilə avqustun 28-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ərəb dilində nəşr olunmuş "Dünya yuxutək əriyir" şeirlər kitabının təqdimat mərasimi keçirilib.



Səfirlikdən verilən məlumata görə, təqdimatda "Katara" Mədəniyyət Şəhərciyinin baş direktoru Xalid İbrahim əl-Sulayti, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türkiyənin Qətərdəki səfiri Mehmet Mustafa Göksu, həmçinin Qətərdə akkreditə olunan bir sıra ölkələrin diplomatları, yerli media mənsubları, Qətərdə yaşayan azərbaycanlı icmasının nümayəndələri iştirak ediblər.

Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov tədbirdə çıxış edərək kitab haqqında məlumat verib, Leyla Əliyevanın poeziyasının fəlsəfi çalarları və özəlliklərindən söz açıb. Bildirib ki, müxtəlif dillərə tərcümə edilən şeirlər toplusunun ərəbcə nəşri ilk dəfə Qətərdə təqdim olunub.



R.İsmayılov həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayan "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası barədə də məlumat verib. Bildirib ki, Xocalı soyqırımı həqiqətlərinin dünyada yayılması məqsədi daşıyan kampaniya çərçivəsində bir çox ölkələrdə həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq, yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunub.

Təqdimatda çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva kitabın məziyyətlərindən söz açıb. Bildirib ki, Leyla Əliyeva gözəl, səmimi, romantik, incə ruhlu şeirlərin müəllifi, maraqlı rəssamdır. Onun bir çox rəsmləri sərgilərdə nümayiş olunub. Leyla Əliyeva Azərbaycanın ictimai həyatında özünəməxsus yer tutur. Bunların hamısını birləşdirsək deyə bilərik ki, o, incə bir ürəyin sahibidir və bu, onun şeirlərində də hiss edilir.

Qeyd edək ki, "Dünya yuxutək əriyir" kitabının dizaynında Leyla Əliyevanın müəllifi olduğu rəsmlərdən nümunələr əks olunub.

Sonra Leyla Əliyevanın həyat və yaradıcılığına həsr olunmuş sənədli film nümayiş etdirilib.

Təqdimat mərasimi haqqında Qətərin ingilisdilli "Gulf Times" və "The Peninsula" qəzetlərində geniş məqalələr dərc edilib, həmçinin "Katara" Mədəniyyət Şəhərciyinin rəsmi saytında və sosial şəbəkə səhifələrində məlumatlar yerləşdirilib.

# Şəkidən Bursaya uzanan ipək tellər

Azərbaycan ipəyi sentyabrın 1-dən 4-dək "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada keçiriləcək 3-cü "Baramadan ipəyə" beynəlxalq festivalında nümayiş etdiriləcək.




Bursa Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə keçiriləcək festivala müxtəlif ölkələrdən ipək istehsalçıları, çoxsaylı qonaqlar qatılacaq.

Azərbaycan festivalda Nizami Gəncəvi Vəqfinin təşəbbüsü, Bakı Yunus Əmrə İnstitutunun dəstəyi və "Azəripək" MMC-nin tərəfdaşlığı ilə "Kəlağayı: Şəkidən Bursaya doğru uzanan ipək tellər" adlı milli stendlə təmsil olunacaq.

Ölkəmizin festivalda iştirakının əsas məqsədi qədim və zəngin ipəkçilik sənətimizi təbliğ etmək, eləcə də Azərbaycanla Türkiyə arasında mədəni əlaqələrin gücləndirilməsinə töhfə verməkdir.

Festivalda Şəkidə istehsal olunan ipək nümunələrinin, milli baş örtüyü olan kəlağayının təqdimatı və satışı keçiriləcək. Bundan əlavə, tədbir boyu Azərbaycan ipəyinin tarixini əks etdirən videomateriallar, ipək və kəlağayı istehsalı zamanı istifadə olunan boya, basma naxış qəlibləri və digər kiçik daşına bilən vasitələrin nümayişi, ustad dərslərinin təşkili nəzərdə tutulur. Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin milli ipək nümunələri ilə bağlı sərgilərin təşkili də planlaşdırılır.

# Musiqi müəllimlərinin yerdəyişməsi ilə bağlı imtahan keçiriləcək

Mədəniyyət Nazirliyinin tabeliyindəki uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərində çalışan müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsi keçiriləcək.

Bu barədə regional mədəniyyət idarələrinə müvafiq əmr göndərilib. Qeyd edilib ki, yerdəyişmə üzrə müsahibə nazirliyin müvafiq əmri ilə təsdiq olunmuş müsahibə komissiyası tərəfindən xüsusi cədvəl üzrə keçiriləcək. Müsahibənin tarixi və keçirilmə yeri barədə namizədə aidiyyəti regional mədəniyyət idarəsi tərəfindən məlumat veriləcək.

Namizəd müsahibədə iştirak etmək üçün aşağıdakılara əməl etməlidir:

**1.** Təyin olunmuş vaxta 15 dəqiqə qalmış müsahibənin keçiriləcəyi binanın qarşısına gəlməli, özü ilə aşağıdakı sənədləri gətirməlidir:

*- şəxsiyyət vəsiqəsinin əslini;*

*- hərbçi ailəsinin üzvü, şəhid ailəsinin üzvü, müharibə iştirakçıları, dövlət təltifləri olan şəxslər müvafiq sənədlərin əslini və surətini.*

**2.** Musiqi ixtisasları üzrə müsahibəyə dəvət olunan namizəd öz musiqi alətini (fortepiano aləti istisna olmaqla) gətirməlidir. Namizəd müsahibədə sərbəst seçimlə ifa edəcəyi əsərin notunu komissiyaya təqdim etməlidir. Müşayiət tələb olunduğu halda namizəd konsertmeyster ilə təmin ediləcək. Namizəd müsahibəyə öz konsertmeysteri ilə də gələ bilər.

**3.** Müsahibə keçirilən məkana namizəd və onun konsertmeysteri yalnız şəxsiyyət vəsiqəsinin əslini təqdim etdikdə buraxılacaqlar.

**4.** Namizəd şəxsiyyət vəsiqəsinin əslini müsahibə keçirilən binanın giriş qapısında buraxılış rejimini həyata keçirən əməkdaşa təqdim etdikdən sonra müsahibə otağına keçməli və müsahibə bitdikdən sonra binanı tərk etməlidir.

**5.** Müsahibə keçiriləcək binaya giriş zamanı mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, çanta, konspekt, məlumat kitabçası və başqa yardımçı vasitələrin keçirilməsi qadağandır. Bu əşyalar aşkar edilən iştirakçılar barədə imtahan rəhbəri tərəfindən akt tərtib olunur, onlar müsahibəyə buraxılmır və ya onların müsahibə nəticələri ləğv olunur.

Namizəd müsahibə zamanı aşağıdakı tələblərə riayət etməlidir:

**1.** Müsahibənin aparılacağı otağa təyin edilmiş vaxtda gəlməli;

**2.** Müsahibə komissiyasının üzvlərinə hörmətlə yanaşmalı, onların suallarını, tapşırıqlarını sonadək dinləməli;

**3.** Suallara mahiyyəti üzrə cavab verməli;

**4.** Üzrlü səbəb olmadan müsahibənin keçirildiyi otağı tərk etməməli;

**5.** Rabitə və digər texniki vasitələri müsahibənin keçirildiyi otağa gətirməməli.

Namizəd müsahibənin aparılacağı yerə müəyyən edilmiş vaxtda gəlmədikdə müsahibə komissiyasının üzvləri tərəfindən onun müsahibədə iştirak etməməsi barədə akt tərtib edilir.

Üzrlü səbəb olmadan təyin olunmuş vaxtda müsahibədə iştirak etməyən namizədlər üçün təkrar müsahibənin keçirilməsinə yol verilmir.

Üzrlü səbəbdən müsahibədə iştirak etməyən namizədlə təkrar müsahibənin keçirilməsinə Mədəniyyət Nazirliyinin Qəbul Komissiyasının razılığı olduğu halda yol verilir.

Müsahibə namizədin razılığı ilə videoçəkiliş aparılmaqla keçirilir.

Namizəd aşağıdakı hallarda müsahibəyə buraxılmır:

*- şəxsiyyət vəsiqəsi olmadıqda;*

*- saxta sənəd təqdim etdikdə;*

*- müsahibəyə təyin olunmuş vaxta 15 dəqiqədən az qalmış gəldikdə;*

*- müsahibəyə içkili vəziyyətdə gəldikdə;*

*- müsahibə keçirilən binaya müsahibəyə gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.*

Namizədə qadağandır:

*- saxta sənəd təqdim etmək;*

*- müsahibəyə öz yerinə başqasını göndərmək;*

*- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla müsahibə keçirilən binaya daxil olmaq, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız içməli su istisna olmaqla), siqaret gətirmək;*

*- hər hansı bir səbəbə görə müsahibə keçirilən otağı tərk edib yenidən geri dönmək;*

*- nizam-intizam qaydalarını pozmaq;*

*- müsahibənin gedişinə mane olmaq.*

Belə hallar aşkar olunarsa, həmin iştirakçı müsahibədən xaric olunacaq və onun müsahibə nəticələri Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən ləğv olunacaq.

# Zərif himayədar



Azərbaycan mədəniyyətinin hamisi, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın doğum günü (26 avqust) münasibətilə Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə çıxış edənlər Mehriban xanım Əliyevanın xalqın rifahı və dövlətin inkişafı istiqamətində çoxşaxəli fəaliyyətindən söhbət açıblar.

***



Ağstafa RMİ Qazax rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “XXI əsrin xoşməramlılar elçisi – Zərif himayədar” mövzusunda tədbir keçirilib. Tədbirdə əvvəlcə Mehriban xanım Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub. Çıxışlarda Mehriban xanımın ölkəmizin inkişafı və vətəndaşların rifahı yolunda əvəzsiz xidmətlərindən bəhs edilib.

# Öncə Vətən deyənlər

Şəki RMİ-nin rəisi Azər Yusubov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki rayon komitəsinin sədri Rəhman Məmmədov, idarənin əməkdaşları Vətən müharibəsi şəhidi Elçin Nadirovun ailəsinə baş çəkiblər.

***



Zaqatala rayonunun Yuxarı Tala kəndində Birinci Qarabağ müharibəsi şəhidi Səlim Əhmədovun xatirəsinə inşa edilmiş abidə-bulağın açılışı olub. Səlim Əhmədov 1993-cü il yanvarın 8-də könüllü olaraq cəbhəyə yollanıb, Ağdərə rayonunun Vəng kəndi ətrafında gedən döyüşlərdə iştirak edib, qəhrəmanlıq göstərib. O, həmin döyüşlərdə itkin düşüb.

***

Ağdaş RMİ Zərdab rayon MKS-nin Salahlı kənd kitabxana filialının təşkilatçılığı ilə Vətən müharibəsi qaziləri Hacı Orucov, İlkin İbrahimli, Ülvü Ələsgərli və Aqil Cəbrayılovla görüş təşkil edilib.

***



Tərtər rayonunun Səhləbad kəndində 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Orxan Aslanlının xatirəsinə inşa edilən bulağın açılışı olub. Bu münasibətlə keçirilən tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, müharibə veteranları, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

***

Biləsuvar RMİ Cəbrayıl rayon Hacılı kənd klubu və rayon MKS-nin 17 saylı kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Təhmasib Mustafayevin doğum günü münasibətilə ailəsini ziyarət ediblər.

***

Ağdam rayonunda 1987-ci ildə Gürcüstanda baş verən təbii fəlakət zamanı insanları xilas edərkən qəhrəmanlıqla həlak olan cəsur azərbaycanlı əsgər Rahib Məmmədovun xatirəsi anılıb. Ağcabədi RMİ Rahib Məmmədovun adını daşıyan Döyüş Şöhrəti Muzeyində keçirilən tədbirdə cəsur əsgərə həsr edilmiş “Əbədiyyətə qovuşan ömür” adlı sənədli film nümayiş olunub.



Ağdam rayonunun Bənövşələr qəsəbəsində Vətən müharibəsi şəhidi Adəm Əmirovun ailə üzvlərinin yaşadığı evin önündə şəhidin xatirə lövhəsi qoyulub. Adəm Əmirov Vətən müharibəsi zamanı Ağdam istiqamətində döyüşlərdə iştirak edib və oktyabrın 20-də şəhidlik zirvəsinə yüksəlib. Rayonun Quzanlı qəsəbəsində Şəhidlər xiyabanında dəfn olunub. Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda” və “Ağdamın azad olunmasına görə” medalları ilə təltif olunub.

**Hazırladı: N.Məmmədli**

# Növbəti “ağıllı kənd” Füzuli rayonunda salınacaq

Zəngilan rayonunun Ağalı kəndindən sonra ikinci “Ağıllı kənd” layihəsi Füzulinin Dövlətyarlı kəndində icra ediləcək.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, minalardan təmizlənən kəndin ərazisində növbəti mərhələ üçün işlərə hazırlıq gedir.

Onun sözlərinə görə, Ağalı kəndində qazanılan təcrübə Dövlətyarlıda da istifadə ediləcək. Plana əsasən, kənddə 450 ev inşa ediləcək. Bunlar 3, 4 və 5 otaqlı evlər olacaq. Kəndin mərkəzində isə bazar və meydan yerləşəcək.

Layihənin hansı tarixdə yekunlaşacağı tikinti işlərinə başlanan zaman bəlli olacaq.

# Şuşada yaradıcılıq emalatxanası

## Layihəyə Azərbaycanın və Türkiyənin yaradıcı insanları qatılıb

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin dəstəyi ilə 26-28 avqust tarixində Azərbaycanın mədəniyyət paytaxtında yaradıcı insanların iştirakı ilə “Şuşa yaradıcılıq emalatxanası” adlı layihə həyata keçirilib.

Layihə çərçivəsində müxtəlif peşə istiqamətləri üzrə Azərbaycandan və Türkiyədən olan yaradıcı sahənin təmsilçiləri Şuşada bir araya gəldilər.

28 avqust tarixində Şuşaya gələn media mənsubları da layihənin iştirakçıları – Azərbaycanın Xalq artistləri, bəstəkarlar Sərdar Fərəcov və Salman Qəmbərov, Əməkdar incəsənət xadimi, musiqişünas Zümrüd Dadaşzadə və başqaları, həmçinin Türkiyədən gələn tanınmış blogerlərlə birlikdə Yuxarı Gövhər ağa məscidi və Şuşa Realnı məktəbi, Cıdır düzü, Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin “güllələnmiş heykəllər”i yerləşən mərkəzi meydanı, Şuşa qala divarlarını ziyarət etdilər, şəhərdə aparılan təmir-bərpa işləri ilə tanış oldular.




Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov bildirdi ki, üç gün ərzində 30-a yaxın yaradıcı şəxs – bəstəkar, musiqişünas, yazıçı, fotoqraf, rəssam və digər sənət sahibləri Şuşa ilə yaxından tanışlıq imkanı qazanıblar. Layihənin nəticəsi olaraq ilin sonuna kimi iştirakçıların Şuşaya səfər təəssüratları altında yaranan əsərlərin təqdimatı, qala-gecənin keçirilməsi planlaşdırılır.

Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin “güllələnmiş heykəllər”i yerləşən meydandan başlayan ziyarətdə Xalq artisti, Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyinin direktoru Sərdar Fərəcov dahi bəstəkarın şəxsiyyəti və yaradıcılığı, eləcə də bu abidələrin tarixi barədə iştirakçılara məlumat verdi. Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadə Bülbül və Xan qızı Natəvanın yaradıcılığından söz açdı, bu il Bülbülün 125, Natəvanın 190 illik yubileylərinin geniş şəkildə qeyd edildiyini vurğuladı. Çıxışlardan sonra iştirakçılar Şuşanın görməli yerlərini gəzdilər.

Qeyd edək ki, layihənin keçirilməsində məqsəd tarixi və əzəli torpaqlarımızda otuz ilə yaxın sürən işğal dövründə törədilmiş barbarlıq, dağıdılmış abidələrimiz haqqında ictimaiyyəti bir daha məlumatlandırmaq, mədəni irsimiz, zəngin tariximiz və ənənələrimizi layihəyə qatılan yaradıcı insanların təqdim edəcəyi əsərlər vasitəsilə daha yaxından tanıtmaqdır.

**Lalə**

# “Daş ürəklərdə yanıb daşları sındırdı muğam”

Avqustun 26-sı “Azərbaycan muğamı və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü” kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir.

Əlamətdar gün münasibətilə Bərdə RMİ Yevlax şəhər Yaradıcılıq evində “Daş ürəklərdə yanıb daşları sındırdı muğam” adlı tədbir keçirilib. Tədbirdə çıxış edən RMİ-nin rəisi Vəsilə Möhsümova milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan muğamlarımızdan, bu sənət incilərinin qorunması, təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Daha sonra gənc musiqiçilərin ifasında muğamlar, xalq və bəstəkar mahnıları səsləndirilib, tanınmış Azərbaycan şairlərinin yaradıcılığından nümunələr söylənilib.

***



Gəncə RMİ Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanası “Muğam aləmi” adlı kitab sərgisi təşkil edib. Sərgidə muğam sənətinin inkişafına töhfə verən görkəmli xanəndələrin audiovizual nəşrləri, kitablar və dövri mətbuat materialları nümayiş olunub.

MKS-nin 19 saylı kitabxana filialı tərəfindən isə “Milli sərvətimiz – muğam” adlı tədbir keçirilib. Tədbirdə 19 saylı kitabxana filialının müdiri Elza Əliyeva çıxış edərək muğam sənətinin tarixindən və zənginliklərindən danışıb.

# Qazaxdakı Cümə məscidində təmir-bərpa işləri yekunlaşıb



Qazaxda 1901-ci ildə inşa edilən və dövlət tərəfindən mühafizə olunan tarix-memarlıq abidəsi – Cümə məscidində təmir-bərpa işləri yekunlaşıb.

Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildirilib. Qeyd edilib ki, Dövlət Xidmətinin işçi qrupu abidəyə baxış keçirib.

# Naxçıvan xanlığının bayraqları haqqında nəşr Praqada təqdim edilib

Xəbər verdiyimiz kimi, 20-28 avqust tarixində Çexiyanın paytaxtı Praqada Beynəlxalq Muzeylər Şurasının (ICOM) 26-cı Baş Konfransı keçirilib. Tədbirə ölkəmizdən də nümayəndə heyəti qatılıb.

Konfrans çərçivəsində ICOM-un komitələrinin iclasları da keçirilib. İCOMAM (hərb tarixi, hərbi muzeylər və silah kolleksiyaları) Beynəlxalq komitəsinin iclasında “QƏSR” Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyi sədrinin birinci müavini, İCOMAM İdarə heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov da iştirak edib. O, “Muzeylər hərb tarixinin qoruyucusu: Azərbaycan, Türkiyə və Rusiya muzeylərinin nümunəsində” mövzulu məruzəsində Azərbaycanın dövlətçilik tarixinin müxtəlif dövrlərinə aid bayraqlardan danışıb, Gəncə xanlığının bayraqları nümunəsində Osmanlı imperiyasının bayraqları ilə oxşarlığı qeyd edib.



İclasda Pərvin Gözəlovun Azərbaycan, rus və ingilis dillərində çap olunmuş “Naxçıvan xanlığına məxsus üç bayraq” kitabının təqdimatı keçirilib. Kitabda müəllif tərəfindən Azərbaycanın elmi-mədəni tarixində ilk dəfə olaraq 2015-ci ildə aşkar edilmiş Naxçıvan xanlığının üç bayrağı barədə ətraflı tədqiqat materialı oxuculara təqdim edilir. Həmçinin nəşrdə Azərbaycan tarixində ilk dəfə olaraq “Gülüstan və Buxarest sülhünə əsasən, Cənubi Qafqazın 1809-1817-ci illərin hərbi əməliyyat xəritəsi” çap edilib. Xəritədə Ermənistan dövləti və toponimləri yoxdur. Xəritə Qafqaz Hərbi Dairəsi Qərargahının hərbi-tarix şöbəsində tərtib edilib.

# Sərgi, yubiley, təlim, görüşlər...




İsmayıllı RMİ Ağsu rayon Mədəniyyət Mərkəzi, rayon İcra Hakimiyyəti və Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin birgə təşkilatçılığı ilə Xalq şairi Mirvarid Dilbazinin (1912-2001) 110 illiyinə həsr edilən tədbir keçirilib. Tədbirdə şairənin şeirlərinə bəstələnmiş mahnılar ifa edilib, aşıq havaları səsləndirilib.

***

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov və idarənin rəisi Nurəddin Mehdiyevin rayonun mədəniyyət müəssisələrinin işçiləri ilə görüşü keçirilib. Görüşdə iştirak edən mədəniyyət müəssisələri əməkdaşlarının müraciət, təklif və şikayətləri fərdi qaydada dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunub, icrası vaxt və araşdırma tələb edən məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib və onların icrası nəzarətə götürülüb.

***

Şəmkir RMİ Şəmkir rayon MKS-nin əməkdaşları Əhməd Cavad adına rayon Mədəniyyət Mərkəzində “Erkən nikaha yox deyək!” başlığı altında tədbir təşkil ediblər. Tədbirdə mövzuya aid videoçarx və sərgi nümayiş olunub.

***

Ağdaş RMİ Zərdab rayon MKS-nin tabeliyində fəaliyyət göstərən kitabxanaların əməkdaşları tərəfindən kənd sakinlərinə səyyar kitabxana xidməti göstərilib.

***

Şəki RMİ-nin rəisi Azər Yusubov idarənin əhatə etdiyi Şəki şəhərindən, Qax, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib. Müraciətlər əsasən işlə təmin olunma, iş yerinin dəyişdirilməsinə kömək göstərilməsi və digər məsələlərlə bağlı olub.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyi münasibətilə “Məclisi-üns” adlı tədbir təşkil olunub. Tədbirdə şairənin həyat və yaradıcılığı barədə məlumat verilib, əsərlərindən parçalar oxunub.

***



Kürdəmir RMİ-nin təşkilatçılığı ilə Horadiz şəhər Muğam Mərkəzində “Şuşa zəfəri: dünənimiz, bu günümüz” adlı tədbir keçirilib. Tədbirdə Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Xocavənd Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Əfsanə Quliyeva, Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı və digərləri çıxış edərək Qarabağ müharibəsi tarixində Füzulinin cəsur övladlarının qəhrəmanlığından, Şuşa zəfərimizə aparan yolun məhz Füzulidən başlamasından ətraflı bəhs ediblər.

Beyləqan rayon Mədəniyyət Mərkəzinin Eyvazalılar kənd Sənətkarlıq klubunun və rayon MKS-nin Eyvazalılar kənd kitabxana filialının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli dövlət xadimi, şair Şah İsmayıl Xətainin (1487-1524) 535 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə çıxış edənlər Xətainin həyat və yaradıcılığı haqqında məlumat veriblər.

***

Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin Cəfərxan kənd Diyarşünaslıq evində “Əhməd Cavad haqqında bilmədiklərimiz” adlı tədbir keçirilib. İstiqlal şairinin 130 illik yubileyinə həsr olunan tədbirdə bədii qiraət dərnəyi üzvlərinin ifasında Əhməd Cavadın yaradıcılığından nümunələr səsləndirilib.

***



Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzinin direktoru vəzifəsini icra edən Kürçaylı Məmmədov və “Mahirlər” xalq ailə ansamblının bədii rəhbəri Elçin Sadıqov Azərbaycan Dövlət Film Fondunda olublar.

Fondun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev görüşdən xatirə olaraq qonaqlara kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin “Azərbaycan kinematoqrafçıları” kitabının bir neçə cildini və kinorejissor, Xalq artisti Rasim Ocaqovun filmlərindən ibarət “qızıl kolleksiya” disklərini təqdim edib.

Mədəniyyət işçiləri Səməd Vurğunun Bakıdakı ev-muzeyini də ziyarət ediblər. Muzeyin ekspozisiyası ilə tanışlıq zamanı onlara böyük şairin həyat və yaradıcılığı barədə məlumat verilib.

***

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Uşaqların asudə vaxtının səmərəli təşkili” layihəsi istiqamətində “Xarici dili mənimsəyirik” adlı təlim keçirilib. Təlimdə müəllim Sadiq Ağayev məktəblilərə ingilis dilində danışıq qaydalarını videoçarxlar vasitəsilə izah edib.

# Şuşada yaradıcı insanları ülvi bir məhəbbət birləşdirir...



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin dəstəyi ilə 26-28 avqust tarixində mədəniyyət paytaxtımızda yaradıcı insanların iştirakı ilə "Şuşa – yaradıcılıq emalatxanası" adlı layihə həyata keçirilib. Layihədə iştirak edən bəstəkar, rəssam, yazıçı və fotoqraflar qala-şəhərimizlə bağlı fikirlərini bölüşdülər.

Xalq artisti, bəstəkar **Sərdar Fərəcov**:

– Artıq neçənci dəfədir Şuşada oluram. Hər dəfə gələndə yeni fikirlər və təəssüratlar bizi özünə bürüyür. Lakin bugünkü səfər xüsusi əhəmiyyət daşıyır. Bu gün Şuşa mədəniyyətini yaradan şəxsiyyətləri bir daha yad etdik. Bu görüş bizim ruhani görüşümüzdür. Hazırda Üzeyir bəy, Natəvan, Bülbülün güllələnmiş büstlərinin qarşısındayıq. Bu şəxsiyyətlə xalqımızın mədəniyyətinin ən gözəl səhifələrini yaradan sənətkarlardır. Onların nigaran ruhlarının dolaşdığı doğma yurdlar uzun illər bizim üçün əlçatmaz idi. Artıq biz arzumuza qovuşmuşuq. Mənə elə gəlir ki, həyatımızın ən mənalı günü olan bu gündən doğan yeni fikirlər gələcəkdə möhtəşəm sənət nümunələrinin yaranmasına səbəb olacaq. Burada bütün yaradıcı insanları ülvi bir məhəbbət birləşdirir...

Türkiyəli bloger **Kerem Gök**:

– "Youtube" üzərindən 650 mindən artıq izləyicim var. Onlara yaxın tarixdən məlumatlar verirəm. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi də yaxın tarixin ən mühüm hadisələrindən biridir. Türklər üçün Şuşanın əhəmiyyəti olduqca böyükdür. Şuşa 28 ildən sonra Azərbaycan Ordusu tərəfindən azad edilən qəhrəman bir şəhərdir. Bu şəhər tarix boyu Türk dünyası üçün bir mədəniyyət ocağı olub. Bu torpaqları görmək insana böyük sevinc bəxş edir. Mən izləyicilərimə Şuşanın tarixini göstərməyə çalışacağam. Çünki 28 ildən sonra azadlığına qovuşan Şuşa hamı üçün sirli bir məkandır. Artıq bu gün bu ərazidə nələr yaşanır və hansı işlərin görülməsi insanlar üçün çox maraqlıdır.

Musiqişünas, Əməkdar incəsənət xadimi **Zümrüd Dadaşzadə**:

– Şuşanın landşaftının özü bir ilham mənbəyidir. İnanıram ki, səfərdən sonra Bakıya dönən sənət adamları, həmkarlarım yeni töhfələrlə bizi sevindirəcəklər. Biz də burada aldığımız təəssüratdan doğan əsərləri eşidərkən yenidən yaşayacağıq.

Bakı Musiqi Akademiyasının professoru **Könül Hüseynova**:

– Layihə sənət adamlarının yaradıcılıq imkanlarının üzə çıxarılması baxımından son dərəcə əhəmiyyətlidir. Biz sənət adamları Vətənə həsr olunmuş əsərlər yaradaraq gələcək nəsillərə çatdırmağı hər zaman qarşımıza missiya kimi qoyuruq. Bu baxımdan Mədəniyyət Nazirliyinin yeni layihəsi yaradıcı ideyalarımızı həyata keçirmək baxımından böyük əhəmiyyət kəsb edir. Əminəm ki, iştirakçılar layihənin nəticəsi olaraq yeni, dəyərli sənət əsərləri ərsəyə gətirəcəklər.

Yazıçı, dramaturq **İsmayıl İman**:

– Bu, Şuşaya üçüncü gəlişimdir. Hər gəlişimdə burada dəyişikliklər görürəm. Bərpa işləri gedir, şəhər canlanır, həyat bura qayıdır. Şuşa Azərbaycanın ürəyidir. Nazirliyin bu layihəsi yaxşı təşəbbüsdür. Onlar bu yaradıcı layihə çərçivəsində mədəniyyət və incəsənət nümayəndələrinə bu təsvirolunmaz atmosferə qərq olmaq imkanı yaratdılar.

Rəssam, ebru ustası **Sevinc Əliyeva**:

– Qarabağa, Şuşaya gəlməyə mənəvi olaraq hazır deyildim. Şuşa hər bir azərbaycanlı kimi mənim üçün də müqəddəsdir. Bu gün həm sevinir, həm də kövrəlirəm. 30 il düşmən əlində dağıdılan şəhərləri görəndə ürəyim parçalanır. Bu gün dövlətimiz tərəfindən abadlaşan torpaqlara baxanda isə fərəh hissi keçirirəm. Bir sənətçi olaraq mən Şuşada yaşadığım duyğuları suyun üzərində ebru sənətində torpaq boyaları ilə ifadə etməyə çalışacağam. Mədəniyyət Nazirliyinə layihənin təşkilinə görə təşəkkür edirəm. Layihənin yaradıcılığıma böyük təsiri olacağına inanıram.

Taxta üzərində oyma ustası **Tofiq Əliyev**:

– Layihə müxtəlif sahənin insanlarını bir araya gətirib. Hər biri öz sahəsi üzrə fərqli duyğu və düşüncələr yaşayır. İnanıram ki, bu səfər və duyğular Qələbə, Şuşa mövzusunda maraqlı nümunələrin ərsəyə gəlməsinə səbəb olacaq.

Sonda onu da qeyd etmək istərdim ki, gənc nəslin nümayəndələrinin də iştirak etdiyi bu layihədə Şuşanı gəzərkən hər kəsin öz fikri, özünəməxsus yanaşması səslənirdi dillərdə. Bəziləri bu duyğuları dilə gətirsələr də, bəziləri, sadəcə, öz daxili düşüncələri ilə şəhəri qarış-qarış gəzirdi. Məsələn, Xalq artisti, tanınmış cazmen və bəstəkar Salman Qəmbərov fikirlərini dilə gətirməsə də, öz sosial şəbəkə hesablarında Şuşadan görüntüləri paylaşıb...

**Lalə**

# Tamara Sinyavskayaya "Şərəf" ordeni təqdim edilib

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2018-ci il tarixində imzaladığı sərəncamla SSRİ Xalq artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya Rusiya-Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif edilib.



Avqustun 26-da mədəniyyət naziri Anar Kərimov ordeni Bakıda səfərdə olan Tamara Sinyavskayaya təqdim edib, ona gələcək işlərində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Azərbaycanın dünya şöhrətli opera və estrada müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Maqomayevin həyat yoldaşı Tamara Sinyavskaya fəaliyyətinin daim diqqətdə saxlanılması və yüksək qiymətləndirilməsinə görə ölkə başçısına dərin təşəkkürünü bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Moskvadakı festivalda Azərbaycan mədəniyyəti və mətbəxi nümayiş olunub

Avqustun 28-də Moskvada "Çoxmillətli Rusiya: müxtəlifliyin birliyi" proqramı çərçivəsində "Xeyirxahlıq Xamovnikidə yaranır" adlı festival keçirilib.



Moskva şəhərinin mərkəzi inzibati dairəsinə aid Xamovniki rayonu müxtəlif xalqların milli mətbəx nümunələrinin təqdim olunduğu restoran və kafelərlə də tanınır.

Tədbirə Rusiyadakı müxtəlif xalqların diaspor təmsilçiləri qatılıb. Azərbaycanı festivalda Əli Kazımovun rəhbərlik etdiyi Moskva Şəhər Qərb İnzibati Dairəsi Azərbaycanlılarının Milli Mədəni Muxtariyyəti təşkilatı təmsil edib.

Festival böyük konsert proqramı və kulinariya təqdimatları ilə yadda qalıb.

Tədbirdə əfsanəvi Müslüm Maqomayevin "Mavi əbədiyyət" və "Azərbaycan" ("Baharlı yurdum") mahnıları səsləndirilib. Qonaqlar Azərbaycan guşəsində paxlava, "Qarabağ kətəsi" və digər milli şirniyyatlardan dadıblar.

Sərgidə həmçinin Azərbaycanın xalq sənətkarlığı nümunələri, tanınmış şəxsiyyətlərin portretləri, ölkəmizin tarixi, mədəniyyəti və görməli yerləri ilə bağlı jurnal və kitablar nümayiş olunub.

# Uşaqlığın havası var başımda...

## Yaxud iki rəssamın bir sərgisindən təəssürat



Müasir Azərbaycan incəsənəti dinamik inkişaf edərək müxtəlif yanaşmalarla rəssamlıq, heykəltəraşlıq, performans, instalyasiya, video-art və fotoqrafiya kimi sahələrdə maraqlı yaradıcı baxışları təqdim edir. Mədəniyyətə, cəmiyyətə, ətrafa, eləcə də dünyada baş verən elmi-texniki yeniliklərə sənət yanaşmasının gözəl nümunələrindən birinə bu günlərdə "Qazelli Art House"da izlədiyimiz sərgidə şahidlik etdik.

Öncə düşündüm ki, bəlkə də bu əsərlərdəki sənəti təsvir etmək üçün sözə ehtiyac yoxdur. Necə deyərlər, baxan baxsın, anlayan da anlasın... Amma rəssamlar Aqil Abdullayev və Fərhad Fərzəlinin "Uşaqlığı yenidən yazarkən" adlı birgə sərgisi "yazmasam olmaz" fikrini diktə etdi.

Sərgidə nümayiş olunan əsərlərdə müxtəlif cərəyanlara meyil var idimi? Düzü, heç bunun da dəqiq fərqinə varmadım. Çünki buradakı sənət nümunələri sanki həm keçmişə, həm də sənətə yeni baxışı tövsiyə edirdi. Forma-biçim baxımından duyulası dərəcədə müasir, məzmunca kifayət qədər düşündürücü əsərlər müasir sənətə sevgi və anlaşma mesajı verirdi...

### Arzularında yaratdığı məxsusi uşaq otağı və səmimi etiraf

İlk olaraq Aqil Abdullayevin işləri ilə tanış oluram. Rəssamın fikir və emosiyalarını təsvir edən nümunələr, rəng özəllikləri ziddiyyət və gerçəkliyə fərqli kontekstdən baxışları əks etdirir. Müəllif həmçinin sosial şəbəkələr, filmlər və instalyasiyalar vasitəsilə incəsənətin yeni sahələrinə müraciət edir. Əsərləri izlədikcə sanki rəssamın cəmiyyətə mesajlarını eşitmiş oluruq. Xüsusən də bu mesajlar rəng seçimində daha qabarıq nəzərə çarpır. Rəssam Şərq mədəniyyətinin kənar amillərin təsirinə necə düşməsini təsvir etmək üçün tez-tez əsərlərində "alter-eqolar" (insanın başqa bir məni) və uydurulmuş personajlar yaradır. Bu silsilədə biz nə qədər yumor və optimizm görsək də, eyni zamanda düşündürücü anlar və kədəri də sezmək mümkündür.

"Super klişe, super qəribəlik, super qeyri-adilik" adlı silsilədə rəssam uşaqlıq dövrü yataq otağının nağılvarı təzahürünü yaradıb. Təkbuynuz və su pəriləri kimi mifoloji obrazlardan istifadə edən rəssam özünün uşaq yaşlarındakı arzularını canlandırmağa çalışıb. Beş nəfər ailə üzvünün yaşadığı kiçik bir evdə böyümə təcrübəsindən istifadə edərək arzularında yaşatdığı məxsusi uşaq otağının təsviri maraq doğurur. Ailə mətbəxində yerləşdirilmiş birnəfərlik çarpayı və heç vaxt maraqlı suvenirlərinə və xatirə əşyalarına yer tapılmayan bir uşaq otağı mənzərəsi. Bütün bu yanaşma isə ən sonda yenə də eyni bir nöqtədə birləşmiş olur: səmimi etiraf...

Aqil Abdullayev İngiltərənin Nottingem Trent Universitetinin Təsviri incəsənət fakültəsinin bakalavr dərəcəsini bitirib. 2018-ci il "Bloomberg New Contemporaries" mükafatına və Nottingemdə One Throsby Street Qalereyasının "Attic Residency" proqramının iştirakçısı adına layiq görülüb. Əsərləri Liverpul Biennalesi (2018), Primary Müasir İncəsənət Məkanı (2017), "The Wrong" – Yeni Rəqəmsal Art Biennalesi (2017), Tate Modern (2016), Gənc Rəssamların 4-cü Moskva Beynəlxalq Biennalesindəki YARAT pavilyonunda (2012) nümayiş etdirilib.



### İncəsənət antropoloji axtarışlarda açar kimi

Fərhad Fərzəli isə yenə də təəccübləndirməyi bacardı. İlk dəfə bir neçə il əvvəl "Bahariyyə" layihəsində onun rəssamlıq və müasir musiqi duyğuları ilə tanış olmuşdum və davamlı olaraq sənətini izləməyə çalışırdım. Rəssamın bu ilin əvvəlində Parisdə təqdim edilən "Tiger is tiger is a tiger is a tiger" ("Pələng var, pələng var") adlı sərgisindən nümunələrlə yanaşı, biz bu dəfə bir az da fərqliliklə rastlaşırıq.



Fərhad uşaqlığı yenidən yazarkən düşüncəsi ilə bizləri nostalji hisslərə qərq edir. 1990-cı illərin ab-havası, unudulmayan anlar və hər birimizin yaşadığı tarix. Rəssam sanki müasir sənət vasitəsilə yaddaşımızı yeniləyir.

Sərgi ilə bağlı rəssam deyir: "2000-ci ildə Bakı zəlzələsindən sonra ailəmizlə Nizami və Bülbül küçələrinin kəsişdiyi bir evə köçdük. Elə o dövrdən başlayaraq küçədən keçən təsadüfi insanların fotosunu çəkməyə başladım. 90-cı illərin əvvəli həyatın bozluğunu sözlə ifadə etmək çətindir. İnsanlar, küçələr, səmalar, ağaclar – hər şey qara-boz çalarlara boyanmışdı. Mən bu bozluqdan qurtulub sağ qaldım. İndi 32 yaşım var və 3 yaşımdan etibarən məşğul olduğum işlə davam edirəm. Tez-tez ev dəyişsək də, bütün arxivimi qoruyub saxlamışam".

Bəli, bu mövzulardan və təcrübədən ilham alan Fərhad Fərzəli sərgidə Bakını gəzən balaca uşağın baxışlarını nümayiş etdirir. Sərgidə bu dünyanı təsvir etmək üçün plastik torbalar, ofis mebelləri, rəssamın uşaqlıq illərinə aid köhnə təmtəraqlı oyuncaqlar təqdim olunur. Bu nümunələr onun keçmişə teatral baxışı kimi də diqqəti cəlb edir.

Pələng rəsmləri Fərhad Fərzəli yaradıcılığında bir xətt kimi keçir. Hələ Parisdəki sərgidə rəssam araşdırmaları ilə pələngin müstəqil Azərbaycan kimliyinin rəmzi olduğunu bir daha təsdiqləyib və yaradıcılığını pələng obrazı ətrafında qurmuşdu. Bu sərgidə də biz pələng obrazlarına rast gəlirik. Ənənəvi mədəniyyəti, xalq estetikasını və keçmiş sovet geosiyasi vəziyyətinin təhlilini bir araya gətirən rəssam pələng obrazı ətrafında postsovet folklorunun kataloqlaşdırılmış formasını, eləcə də Azərbaycanın bütpərəst keçmişini və qalib ovçuluğu təmsil edən Mesopotamiya ilahi atributunu təcəssüm etdirir. Bəzi İslam ənənələrində mələk müjdəçisi hesab olunan pələng müasir dövrdə kişi gücünün rəmzi kimi qəbul edilir. Rəssam bu rəmzin dəyərini öyrənmək üçün kodları və mövcud istinadları bir araya gətirib.

Fərhad Fərzəli beynəlxalq nüfuza malik konseptual rəssamlarımızdan biridir. O, Azərbaycan identikliyini və vizual ikonoqrafiyanı araşdırmaq məqsədilə bir çox sahədə, o cümlədən rəsm, instalyasiya, performans, rəqəmsal incəsənət və səs sahələrində fəaliyyət göstərir. Bir rəssam kimi isə Fərhad müəyyən mövzulara yumoristik və düşünülmüş şəkildə yanaşmaları ilə mədəni, cinsi və coğrafi stereotipləri təhlil etməklə maraqlı əsərlər ortaya qoyur. Müxtəlif sahələrdə çalışması onun konseptual araşdırmalarına yardımçı olur. O həm də incəsənətdən antropoloji axtarışlarında bir vasitə kimi istifadə edir.

Sərgidə diqqətimi çəkən bir məqam da minlərlə bukinist kitabları və onların üzərində qoyulmuş boş plastik torbalar idi... Müxtəlif mövzulara və sahələrə aid bu qiymətli kitabların üzərindəki bu boş torbalar müasir günümüzü simvolizə edir. Yaxud da sərginin ən maraqlı guşəsi olan rəssama aid xatirə əşyaları. Burada nələrə rast gəlmək olmur ki. Dövrünün ən bahalı, bəlkə də 90-cı illərdə bir çox uşaq və gəncin arzuladığı aksesuarlar, oyuncaq və əşyalardan tutmuş, müxtəlif ədəbiyyatlara qədər...

Mədəni irsə sadiqlik rəssamın bütün yaradıcılığını əhatə edir. Buna misal olaraq biz sərgidə milli ornamentli xalça və tekstil məmulatlarını da görürük. Müasir düşüncə yanında, ondan ayrılmayan xalça... Keçmişi unutma, gələcəyə üz tut deyir, yoxsa başqa mesajı da var? Hər halda bunu rəssam özü daha yaxşı şərh edər.

Fərhad Fərzəli 7-ci Daşkənd Müasir İncəsənət Biennalesi (2013), 16-cı Şarja İslam İncəsənəti Festivalı (2014) və "Unbound Group"un dəstəyi ilə keçirilən 6-cı Moskva Biennalesində (2015) iştirak edib. 2016-cı ildə rəssam Nailə Allahverdiyeva ilə birlikdə Rusiyanın Perm şəhərindəki PERMM muzeyində keçirilən müasir Azərbaycan incəsənətini təcəssüm etdirən "Şəkərli dağlar, neftli sahillər" adlı sərginin kuratoru olub. 2017-ci ildə isə onun əsəri "Die Greuze" adlı səyyar sərgidə nümayiş etdirilib. Həmin sərgi Rusiyanın Moskva, Sankt-Peterburq və Krasnoyarsk kimi şəhərlərində də təqdim edilib.

2011-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Fərhad Fərzəlinin əsərləri Bakıdakı Müasir İncəsənət Muzeyinin kolleksiyasında, Milli İncəsənət Muzeyində və YARAT Müasir İncəsənət Məkanında nümayiş etdirilir.

**L.Azəri**

## Tanınmış sənətşünas Cəmilə Həsənzadə vəfat edib



Tanınmış sənətşünas alim, Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq doktoru, professor Cəmilə Həsənzadə avqustun 27-də, 75 yaşında vəfat edib.

Cəmilə Yusif qızı Həsənzadə 7 dekabr 1947-ci ildə Bakı şəhərində anadan olub. 1968-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1973-cü ildə İ.Repin adına Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun (indiki Sankt-Peterburq Rəssamlıq Akademiyası) Sənətşünaslıq fakültəsini bitirib.

Cəmilə Həsənzadə Azərbaycan miniatür sənətinin görkəmli tədqiqatçısı, "Təbrizin sehrli nağılları" kitabının müəllifidir. Təbrizin miniatür boyakarlığı, miniatür məktəbinə aid yüzlərlə elmi əsər, məqalə yazıb. Rus, fransız, ingilis dillərini mükəmməl bildiyi üçün ən müxtəlif mənbələrdən yararlanaraq, araşdırmalarını danılmaz faktlarla əsaslandırıb. Uzun illər AMEA Memarlıq və İncəsənət İnstitutunda elmi fəaliyyəti ilə yanaşı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasında dərs deyib.

Allah rəhmət eləsin.

## "Nurlu yol"

### Teymur bəy Bayraməlibəyov haqqında filmin təqdimatı

Avqustun 27-də Nizami Kino Mərkəzində "Nurlu yol" sənədli filminin təqdimatı keçirilib. "Masal prodakşn"ın istehsalı olan ekran əsəri görkəmli maarifçi, folklorşünas, tarixçi-etnoqraf, ictimai xadim Teymur bəy Bayraməlibəyovun (1862-1937) həyat və fəaliyyətinə həsr olunub.



Tədbirdə Milli Məclisin deputatı, tarix elmləri doktoru Anar İsgəndərov Teymur bəy Bayraməlibəyovun Azərbaycanda maarifçilik hərəkatının inkişafında xidmətlərindən danışıb. Bildirib ki, Teymur bəy ötən əsrin əvvəlində Lənkəranda maarifçilik fəaliyyəti, eləcə də bölgənin etnoqrafiyası və folkloru ilə bağlı əsərlərin müəllifi kimi şöhrət qazanıb.

"Masal prodakşn"ın baş direktoru Cəfər Cəfərov qeyd edib ki, Teymur bəy Bayraməlibəyovun 160 illiyində ərsəyə gələn sənədli film onun irsinin öyrənilməsinə töhfədir.

Sonra film nümayiş olunub. Filmin ssenari müəllifi Cəfər Cəfərov, quruluş və təsvir rejissoru Elsevər Əliyev, montaj rejissoru Faiq Mirzədir. Teymur bəy rolunu Masallı Xalq teatrının aktyoru Cavid Quliyev canlandırıb.

Tədbirdə Milli Məclisin deputatları, elm xadimləri Teymur bəy Bayraməlibəyovun gördüyü işlərdən danışaraq ekran əsəri ilə bağlı fikirlərini bölüşüblər.

Diqqətə çatdırılıb ki, Teymur bəy Bayraməlibəyov 1862-ci ildə Lənkəran qəzasının Yeddioymaq kəndində (Masallı rayonu) dünyaya gəlib. İlk təhsilini molla məktəbində alıb. Sonra Lənkəranda ikisinifli rus məktəbində oxuyub. Tiflisdə feldşer məktəbində, Qori Müəllimlər Seminariyasında təhsil alıb. Görkəmli maarifçinin təşəbbüsü ilə 1917-ci ildə Lənkəranda "Ünas" (qızlar) məktəbinin açılması o dövr üçün mühüm hadisə idi. O, həmçinin Lənkəran zonasının flora və faunası, folkloru ilə bağlı tədqiqatların müəllifidir.

Sovet dövründə də fəaliyyətini davam etdirən Teymur bəy Bayraməlibəyov 1937-ci ildə vəfat edib.

Sonda Teymur bəy Bayraməlibəyovun nəticəsi, publisist Teymur Atayev filmin hazırlanmasında əməyi olanlara və tədbirin iştirakçılarına minnətdarlığını bildirib.

## Musiqiləri kimi həzin...

### Xalq artisti, bəstəkar Sevda İbrahimovanın əziz xatirəsinə

Bəli, məncə, onun bu dünyadan köçü (bu ilin 17 iyulunda dünyasını dəyişib) də musiqiləri kimi həzin, hay-küydən uzaq, insanın ən dərindəki hisslərinə toxunub sızıldadacaq qədər kövrək oldu.

Biz kütləvi dinləyici auditoriyası musiqi xadimlərini, ələlxüsus da bəstəkarları daha çox ən populyar janr olan mahnı yaradıcılıqlarına görə tanıyırıq. Təbii ki, bu, ədalətsizlikdir. Çünki elə böyük klassik və fundamental əsərləri olan bəstəkarlarımız var ki, onları yalnız məhdud auditoriya tanıyır. Hərçənd musiqidə xidmətlərini müqayisə etsək, dərin fərq yaranar...

Bu mənada düşünürəm ki, Xalq artisti Sevda İbrahimova (1939-2022) istər irihəcmli, istərsə də mahnıları ilə seçilən imzalardandır. O, bütün ömrünü həm də musiqi sənətimizin elmi cəhətdən təbliğinə, pedaqoji istiqamətdə öyrənilməsinə həsr edib.

Sənəti ilə şəxsiyyəti bir-birini tamamlayan, bütün mürəkkəb zamanlarda peşəsinə və yaradıcılıq xəttinə sadiq qalan və ən əsası da xalqının musiqi xəzinəsini dərindən sevən, onu yorulmadan təbliğ edən, yaradıcılığında mənsub olduğu xalqın musiqi irsini yaşadan bəstəkar idi. Bu da təsadüfi deyildi. Böyük yazıçımız Mirzə İbrahimovun yadigarı, tarzən Qurban Pirimovun nəvəsi olmaq və böyük amallar uğrunda yaşayıb-yaratmaq heç də hər kəsə nəsib olan səadət deyildi. Odur ki, o, zəhməti, dərin bilgisi və gendən gələn istedadı ilə böyük bir ömrü məhsuldar, dolğun, maraqlı və xalqına faydalı olmaq üçün yaşadı.

Sevda İbrahimova nəinki vətənimizdə, eləcə də onun hüdudlarından kənarda da yaxşı tanınırdı. Əsərləri ABŞ, Fransa, Almaniya, İsveçrə kimi ölkələrdə təşkil olunan konsertlərin proqramlarını bəzəmişdi. Bəstəkarın simli orkestr və skripka üçün "Həyat bir pəncərədir" əsəri müəllifə xüsusi sevgi qazandırıb. Bu qəbildən olan orqan, soprano və bariton üçün "Poema-ithaf"ını, fortepiano və simli orkestr üçün "Konsertino" əsərini, fortepiano üçün "Əhval-ruhiyyələr" kimi nümunələrini qeyd edə bilərik.

Musiqiyə dərin köklərlə bağlı olan bəstəkar bütün yaradıcılığında klassika, dünya musiqi irsi ilə muğam sənətini çox incə tellərlə, sirli bir vəhdətdə təqdim etməyə çalışıb. Təbii ki, bunun da özəl səbəbi ailəsindən gələn milli musiqi, muğam sənəti bağlılığı idi.

Ümumiyyətlə, Sevda İbrahimovada musiqiyə maraq çox kiçik yaşlarında yaranıb. Sözsüz ki, bu işdə babası məşhur tarzən Qurban Pirimovun, anası, Azərbaycanın ilk alitəhsilli qadın pianoçusu olan Sara Pirimovanın böyük rolu vardı. Bütün bunların nəticəsi olaraq əvvəlcə Üzeyir Hacıbəyli adına



Azərbaycan Dövlət Konservatoriyasının Fortepiano fakültəsini (professorlar M.R.Prenner və Q.Qarayevin sinifləri) bitirən gələcəyin bəstəkarı müəllimlərinin diqqətini cəlb etməyə nail olur. Ali təhsilini başa vurduqdan sonra pedaqoji fəaliyyətə başlayan S.İbrahimova 1968-ci ildən ömrünün sonunadək bu musiqi tədrisi ocağında çalışır, professor kimi yeni elmi kadrların yetişməsinə əmək sərf edir.

Elmi-pedaqoji fəaliyyətinə rəğmən əsas sevgisindən – musiqi bəstələmək vərdişindən də əl çəkmir. Yaradıcılığına nəzər salsaq, bir neçə kantatanın, iki kvartetin, fortepiano və orkestr üçün dörd konsertin, fortepiano və orkestr üçün konsertinonun, fantaziyanın, orqan və orkestr, skripka və orkestr üçün musiqilərin, fortepiano üçün silsilə pyeslərin, romansların, elegiyaların, ballada və vokal əsərlərinin say və mövzu baxımından zənginliyini görürük. Bu mənada onun lirik və xüsusi zövqlə seçilmiş mətnlərə yazdığı mahnılarını da ayrıca qeyd etməliyik.

Bəstəkarın yaradıcılığında irihəcmli musiqi əsərləri də xüsusi yer tutur. Tələt Əyyubovun librettosuna əsasən bəstələdiyi "Həqiqət üzüyü" adlı ilk operasını hələ 1970-ci ildə ərsəyə gətirən bəstəkar "Nənəmin nəğməli nağılları" (libretto – Hikmət Ziya) adlı operanın da müəllifidir. Təsadüfi deyil ki, bu nümunə uşaqlar üçün yazılan nadir əsərlərdən hesab edilir.

S.İbrahimovanın babası Q.Pirimova bəslədiyi nəvə və dinləyici sevgisi zəngin silsilə musiqi əsərlərinin də ortaya çıxmasına səbəb olub. Bu mənada "Xatirə" poeması, "Qurbansız qalan tarım", eləcə də tar, kamera orkestri və səs üçün nəzərdə tutulan "Oda" adlı musiqi nümunələri mütəxəssislər tərəfindən bəyənilən əsərlərdir. Onun vətən, Qarabağ, Şuşa sevgisinin musiqili izharı da var. Bu, müəllifin böyük hüznlə nota köçürdüyü tar və kamera orkestri üçün "Sənin üçün darıxıram, Şuşam" əsəridir.

Ümumiyyətlə, Sevda xanımın yaradıcılığında Vətən, Qarabağ mövzusu xüsusi yer tutur. O, həsrətlə sevgisini musiqinin dilində elə zərif, elə həzin ifadə edir ki, istər-istəməz qulaq kəsilməli olursan. Müəllifin 20 Yanvar faciəsinə ithaf etdiyi "Vətən şəhidlərinə", "Qəmginliklər", "Vətən düşüncələri" adlı silsiləsini də unutmaq olmaz.

Ümumilikdə yüzdən artıq mahnı və romansın müəllifi olan S.İbrahimova Aşıq Ələsgər, Nigar Rəfibəyli, Hökumə Bülluri, Mirvarid Dilbazi, Nəriman Həsənzadə, eləcə də atası Mirzə İbrahimovun yaradıcılığına müntəzəm müraciət edib. Onun mahnılarını respublikanın görkəmli müğənniləri – Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Xuraman Qasımova, Elmira Rəhimova, Flora Kərimova, Akif İslamzadə və başqaları ifa ediblər.

Çoxşaxəli yaradıcılığa malik bəstəkar bir sıra teatr tamaşaları və kinofilmlərə də musiqilər bəstələyib, fortepianonun tədrisi üçün dərsliklər ərsəyə gətirib.

Dolğun yaradıcılığı tamaşaçıları ilə yanaşı dövlətimiz tərəfindən də yüksək qiymətləndirilən bəstəkar 2005-ci ildə "Xalq artisti" fəxri adına layiq görülüb. O, 1994-cü ildən Bakı Musiqi Akademiyasının professoru idi.



Yaradıcılıq gecələrinin birində fortepiano arxasına keçərək "Müəyyən səbəblərə görə fəaliyyətimin istiqamətini əsasən pedaqoji və yaradıcılıq sahəsinə yönəltmişəm. Amma elə əsərlərim var ki, onlar mənim mənəvi ehtiyacımdan, həsrətimdən, nisgillərimdən doğulub. Bu səbəbdən də onları özüm ifa edəndə sanıram ki, içimdəki yanğı daha dolğun əks olunur" deyən və Mirvarid Dilbazinin sözlərinə yazdığı "Oyan, bülbül" mahnısını ifa edən müəllif incə qəlbinin səsini bu yolla yenidən dinləyicisinə çatdırmaq istəmişdi...

...Yazını onun ən sevdiyim və tez-tez dinlədiyim bir mahnısı ilə – "Sən məni yad et"lə bitirmək istəyirəm. N.Həsənzadənin sözlərinə yazılan bu lirik nəğmədə bir misra var – "Günəşi ağ bulud, ya qara bulud bir anlıq örtsə də, sən məni yad et...".

Xatırlanmağın, unudulmamaq üçün intizarla yalvarışın musiqidə sərhədsiz ifadəsi olan nəğmə və ümumən dolğun ömür və sənət yolu, sözsüz ki, onu da yaddaşlara qazıyacaq. Çünki sənətə həsr olunan ömür zaman anlayışına daim meydan oxuyur...

**Həmidə Nizamiqızı**

## "Şuşa mədəniyyətinin inciləri" layihəsi davam edir

Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" münasibətilə həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsi yeni təqdimatlarla davam edir.

Layihənin "Şuşanın memarlıq salnaməsi" bölməsi üzrə növbəti təqdimat qala-şəhərimizin tarixi tikililərindən olan Mamayı məscidinə həsr olunub.






Qədim Şuşada 17 məhəllə olub. Onlardann doqquzu aşağı məhəllə, səkkizi isə yuxarı məhəllələr sayılırdı. Hər məhəllədə hamam, məscid və bulaq var idi.

Mamayı məhəlləsi Şuşanın mərkəzi hissəsində yerləşir. XIX əsrdə Şuşanın Mamayı məhəlləsində tikilmiş eyniadlı məscidin memarı Kərbalayı Səfixan Qarabaği olub. Şəhərin adi yaşayış binalarının damörtüyünü xatırladan məscidin damında azançı üçün "güldəstə" quraşdırılıb.

Mamayı məscidi sovet dövründə "Poeziya evi" kimi də fəaliyyət göstərib.

## Borçalı aşıq mühitinin məşhur yetirməsi

### Xındı Məmməd həm də "Borçalı bülbülü" kimi tanınıb

Borçalı aşıq mühiti tarixən bu sənətin inkişafı və şəkillənməsində mühüm rol oynayıb. Azərbaycanın bu qədim elinin yetişdirdiyi neçə-neçə sənətkar Qorqud yadigarının gələcək nəsillərə ötürülməsində böyük xidmətlər göstəriblər. Dolğun yaradıcılıq fəaliyyəti ilə dəyərli poetik nümunələr yaradan belə görkəmli sənətkarlardan biri Aşıq Xındı Məmməd olub.

Məmməd Gülabı oğlu Qəniyev 1896-cı ildə Borçalı, indiki Marneuli rayonunun Qaş Muğanlı (Böyük Muğanlı) kəndində dünyaya göz açıb. O, gənc ikən ailəyə bədbəxtlik üz verir. Gülabı kişi vaxtsız dünyasını dəyişir. Məmməd dayısı Hüseyn Qocanın himayəsində qalır. O, erkən çağlardan iti zəkası, dərin düşüncəsi və məlahətli səsi ilə taytuşlarından fərqlənir. Bədahətən şeirlər qoşur, el şənliklərində, toy-düyündə ona da söz verilir. Dayısı Məmmədin bu fərasətindən çox məmnun qalır. Günlərin bir günü dayısı Məmmədlə birlikdə elin hörmətli aşıq-şairi Qaçaqanlı Ağacanın yanına gedir. Bacısı oğlu haqqında ona məlumat verir, aşıq sənətinə marağı olduğunu deyir. Aşıq Ağacan onu ayaqüstü sorğu-sual edir. Yaddaşını, musiqi duyumunu yoxlayır və razı qalır. Məmməd bir müddət Aşıq Ağacanın yanında qalır. Ondan sənətin sirlərini öyrənir. Sonra ustadından rüsxət alır və geri dönür.

Borçalı mahalının yaxın-uzaq kəndlərində el şənliklərinin yaraşığı və xalqın sevimlisinə çevrilən Məmməd bir gün dövrün məşhur aşığı Bəyazidli Aşıq Məsimlə qarşılaşır. Bu onun yaxşı ifaçı kimi formalaşmasına təsir göstərir. Məmmədin də şaqraq və məlahətli səsi, bədahətən şeirlər deməsi Aşıq Məsimdə dərin təəssürat doğurur. İllər bir-birini əvəz etdikcə Aşıq Məmməd Borçalı elinin ustad aşığı səviyyəsinə yüksəlir, "Xındı Məmməd" təxəllüsü ilə şeirlər də qələmə alır.

*Xındı Məmməd istər*
*haqdan imdadı,*
*Çağırır dadına o min bir adı,*
*Borçalının bəlli olan ustadı,*
*Şair Nəbi, Ağacanı neylədin?*

Çox keçmir Aşıq Xındı Məmməd sənətinin şöhrəti Borçalı elinin hüdudlarını aşır. Səsində, avazında Kərəm yanğısı, Koroğlu nərəsi-zəngulesi çağlayan Xındı Məmməd "Yurd yeri", "Mənsuri", "Yanıq Kərəmi", "Zarıncı", "Bəhməni" kimi incə havalarla yanaşı, "Misri", "Cəngi" kimi ağır aşıq havalarının da gözəl ifaçısı olaraq tanınır.

Araşdırmalarda qeyd edilir ki, maraqlı yaradıcılıq yolu keçən Xındı Məmməd divani, təcnis, gəraylı və müxəmməs kimi şeir formalarında maraqlı nümunələr ərsəyə gətirib.

*Mən eşqdən abdal olub,*
*Düşdüm dildən-dillərə.*
*Xındı Məmməd Məcnun kimi,*
*Saldın çöldən-çöllərə.*



Əsərlərində gənclik illərindən ağır çətinliklərlə qarşılaşdığı, daha doğrusu, sınaqlara çəkildiyi, yaxşıların yerini namərdlərin tutmasından bəhs edib. Onun şeirlərində elə-obaya, dost-tanışa dərin məhəbbət aşılanır, dostluq, insanlıq geniş tərənnüm edilir:

*Nəzər qıldım tənəzzülün işinə,*
*Mərd yerini namərd aldı, ay hayıf.*
*Mən aşığam, ay hayıf,*
*Kimlər oldu, ay hayıf,*
*Getdi daha qalmadı,*
*Qədir bilən, ay hayıf.*
*Qədir bilən, şirin gülən dostları,*
*Fələk vurub ayrı saldı, ay hayıf...*

Görkəmli sənətkarın zəngin irsindən günümüzə 200-dən çox şeiri gəlib çatıb. Mənbələrdə onun dövrünün tanınmış el sənətkarları, şairlər – Aşıq Ağacan, şair Nəbi, Aşıq Məsim, Aşıq Təhləli Novruz və başqaları ilə şeir şəklində məktublaşdığı bildirilir.

30-cu illərin Stalin repressiyaları zamanı Azərbaycanda olduğu kimi, Gürcüstanda da milli təəssübkeş sənət adamları haqsız təqib və təhdid edilir. "Borçalı bülbülü" kimi tanınan Aşıq Xındı Məmməd bir daha çətin sınaqlara çəkilir. O, 1930-cu ildə pantürkizmdə ittiham edilərək həbs olunur. Bir müddət Tiflis şəhərindəki Metex qalasında saxlanılır. Xeyli araşdırma və yoxlamalardan sonra günahsız olduğu təsdiqlənir və həbsdən buraxılır. Aşıq azadlığa çıxandan sonra yazır:

*Köklü bir qayanı, atalar demiş,*
*Qaldırıb yerindən yel ata bilməz.*
*Layiq bilib sığışdırmaz adına,*
*Namərd kölgəsində mərd yata bilməz.*

II Dünya müharibəsi başlayanda onu da digər həmyaşıdları kimi səfərbərliyə alırlar. Cəbhəyə yola düşməmişdən əvvəl sədəfli sazını "Cəngi" havası üstündə kökləyib divardan asır... Gün gəlir müharibə başa çatır. Sağ-salamat evə dönən Xındı Məmməd sevdiyi sənətini davam etdirir, doğma elində çoxsaylı şəyird yetişdirir. Onlardan Aşıq Məhəmməd Sadaxlı, Aşıq Allahyar, Aşıq Ziyəddin, Aşıq Seyfi və başqaları ustad sənətkardan dərs alıblar.

Xındı Məmmədin şəyirdləri arasında oğlu Gülabının da adı var. Xalq şairi Zəlimxan Yaqub "Meydanda mərdi-mərdanə" kitabının ön sözündə yazır: "Xatirələrdən daha canlı, daha təravətli üç yadigarı da var Xındı Məmmədin. Onun radionun "Qızıl fond"unda qorunub saxlanılan lent yazıları, aşıqlarımızın dilindən düşməyən şeirləri və yolunu çox böyük ləyaqətlə davam etdirən Aşıq Gülabı kimi bir sənətkarın varlığı. Hər üç müqəddəs nemət Xındı Məmmədin şəxsiyyət və sənətkar xoşbəxtliyidir".

Ustadın böyük oğlu fizika-riyaziyyat elmləri doktoru, professor Lətif müəllim atası ilə bağlı xatirələrində yazır: "Atam Şərq, ərəb, türk və xüsusilə İslam tarixini mükəmməl bilirdi. Çox yaxşı yadımdadır, o, məşhur ərəb tarixçisi Təbərinin "Hökmdarlar və peyğəmbərlər tarixi", həmçinin İsgəndər bəy Münşi-Türkmanın "Şah Abbasın tarixi" əsərlərindən çoxlu sayda epizodlar danışardı".

Aşıq şeirinin müxtəlif janrlarında dəyərli sənət nümunələri yaradan, ustad aşıq kimi yaddaşlarda, xatirələrdə yaşayan Xındı Məmməd 28 avqust 1968-ci ildə vəfat edib, doğulduğu kənddə dəfn olunub.

**Savalan Fərəcov**

# Saralmış not yazıları, ağ-qara şəkillər və ölməz bəstəkardan xatirə

## Musiqi Mədəniyyəti Dövlət Muzeyinin fondunda Fikrət Əmirovdan yadigar qalanlar

əvvəli səh. 1-də

Muzeyin fondunda bəstəkara aid 30-a yaxın not əlyazması qorunur. Nümunələr arasında onun səs və fortepiano üçün yazdığı "Ürəklər", "Skertso", "Aşıq musiqisi", eləcə də "Böyük dayaq" kinofilminə yazdığı bəzi musiqilərin not əlyazmaları var.

Skripka və fortepiano üçün yazdığı "Rəqs", "Laylay", "Vals", "Görüş", eləcə də xalq mahnısı "Reyhan"ın səs və fortepiano üçün müəllif əlyazması da bu qovluqdadır. Öz təravətini heç vaxt itirməyən "Mən səni araram" mahnısının 1968-ci ilə aid müəllif əlyazması da diqqət cəlb edir.

Müəllif not əlyazmaları içərisində böyük bəstəkarın görkəmli dramaturq Cəfər Cabbarlıya həsr etdiyi əsərinin – səs və kamera orkestri üçün yazdığı "Cəfər Cabbarlının portreti"nin partiturası da var. 1965-ci ilə aid qeydlərlə zəngin bir müəllif not əlyazması isə Bakı və bakılılara həsr etdiyi "Həyat səhifələri" əsərinin partiturasıdır.

Dahi Üzeyir Hacıbəyliyə hər zaman böyük sevgi və ehtiram bəsləyən bəstəkar onun müxtəlif əsərlərindən hissələrə orkestrləşmələr də edib. Bu qiymətli qeydlər içərisində Üzeyir bəyin "O olmasın, bu olsun" musiqili komediyasından Əsgərin ariyasının Fikrət Əmirov tərəfindən simfonik orkestr üçün yeni orkestrləşməsi (partitura), həmçinin "Arşın mal alan" musiqili komediyasının simfonik orkestr üçün yeni orkestrləşməsinin not əlyazmaları var.

Müəllif not əlyazmalarının əsas hissəsini isə ona xüsusi şöhrət gətirən "Sevil" operasının partituraları təşkil edir. Bəstəkarın N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinin tamaşasına yazdığı musiqinin simfonik orkestr üçün partiturası da muzeyin fondunda saxlanılır.

Bildiyimiz kimi, Fikrət Əmirov musiqi mədəniyyəti tarixində həm də ilk simfonik muğamların yaradıcısı kimi qalıb. Bununla bağlı bəstəkarın xatirələrində bir qeyd də var: "1939-1940-cı tədris ili idi. O zaman mən rəhmətlik Bülbülün kabinəsində işləyirdim. Bir gün işin axırında konservatoriyaya gələrkən gördüm ki, Bülbül bir qoca kişinin qolundan tutub, pilləkəndən düşürür. Mən salam verdim. Bülbül dedi: – Cabbar əmi, bilirsən bu kimdir? Məşədi Cəmilin yadigarıdır.

Cabbar əminin gözləri yaşardı.

Bülbül dedi: – Cabbar əmi, bəlkə bir şey oxuyasan, Fikrət yaza... Bülbülün sözünü yerə salmayan 80 yaşlı qoca təzədən yuxarı qalxdı. Qavalı yanında olmadığından, royalın taxtasına əli ilə ritm vuraraq "Kürd-ovşarı"nın başlanğıcı olan bir təsnif oxudu. Bu hadisədən 7-8 il keçəndən sonra mən "Kürd-ovşarı"nı yazanda həmin təsnifdən istifadə etdim. Onu demək istərdim ki, məni bu işə Cabbar Qaryağdıoğlu təhrik etdi.

Mən xoşbəxtəm ki, gözümü açıb Cabbar Qaryağdıoğlu, Bülbül, Qurban Pirimov və Seyid Şuşinski kimi böyük sənətkarlarla şəxsən dostluq etmişəm. Bu dostluq mənə atamdan nəsib olmuşdur...".

Bu və digər qiymətli xatirələrin toplandığı, Heydər Əliyev Fondu tərəfindən çap olunan kitabın da nüsxələri muzey fondunda qorunan nümunələr arasındadır.

"Mən bu fikirdəyəm ki, bəstəkarın vəzifəsi təkcə musiqi bəstələməklə bitmir. Fikri həmişə səslərlə deyil, bəzən də sözlərlə ifadə etməyə daxili ehtiyac duyursan. Söz qəlbdə qalmaz, deyiblər. Bu qeydləri sənət müəllimlərim, sənət dostlarım, eləcə də xarici həmkarlarım, səyahətlərim haqqında qəlbimdə "qala bilməyən", dinləyicilərlə, oxucularla bölüşmək istədiyim fikirlərdir" deyən bəstəkarın fərqli illərdə çap olunduğu jurnallar da burada yer alır.

Bəstəkar uşaqlar üçün də dəyərli əsərlər yazıb. Onların bir qismi təkcə musiqi məktəblərində deyil, orta məktəblərin musiqi dərslərində də tədris olunur. Bu gün az qala böhran yaşanan uşaq mahnı və musiqiləri sahəsinə töhfə sayılacaq nümunələrin not yazıları da muzey fondunda yer alıb. Onları bəstəkar özü sağlığında fonda təqdim edib.



Müəllifin çap not vərəqləri içərisində özündə bir neçə vərəqlik not da diqqətimi cəlb etdi. Bu, müəllifin "Asəf Zeynallıya xatirə" (skripka və fortepiano üçün) əsəri idi. Əsərin not yazısı 1949-cu ildə "Musiqi" nəşriyyatında çap olunub.

Fikrət Əmirovun uşaqlar üçün əsərlərinin çap nümunələrindən danışarkən "Uşaq lövhələri və 12 miniatür" (fortepiano üçün), eləcə də "Uşaq pyesləri" (fortepiano üçün), həmçinin "Uşaq nəğmələri", "Məktəbli nəğmələri" (azyaşlı uşaqlara fortepiano ilə oxumaq üçün) olan ayrı-ayrı illərə aid nəşrləri vurğulamaq lazımdır.

...Yaddaşımızda fərqli obrazı – seyrək dalğın saçları, düşüncəli baxışı və saf təbəssümü ilə qalan mehriban simalı Fikrət Əmirovun ömrünün ayrı-ayrı anlarının əks olunduğu fotoşəkillər də muzey eksponatı kimi qorunur. Bu fotolarda qayğısız, məsum uşaq, dəliqanlı yeniyetmə, dünyaya meydan oxuyacaqmış kimi iti nəzərli gənc, sinəsinə tarı sıxıb, dünyanı unudan musiqiçi, royalı arxasında hansısa əsərini şövqlə ifa edən bəstəkar, masasına qalaqlanmış əlyazmaları arasında itib-batan tədqiqatçı, orkestr önünə çıxıb layiq olduğu tükənməz tamaşaçı sevgisi qarşısında səadətlə gülümsəyən Fikrət Əmirov canlanır...



Ömrü zəngin musiqi irsinə köçüb, əbədiyyət qazanmış bəstəkardan xatirə qalan nümunələrin geniş tamaşaçı kütləsi üçün ekspozisiyaları da bəzəyəcəyi ümidi ilə muzeyi tərk edirik. Onun ölməz "Şur" simfonik muğamının sədaları altında...

**Həmidə Nizamiqızı**

# Qədim məhəllənin yeni növrağı – Çəmbərəkənd parkı



Prezident İlham Əliyevin ölkəmizin inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyanın mühüm bir istiqaməti də Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsidir. Son illərdə paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar yaradılıb.

Səbail rayonunda salınan Çəmbərəkənd parkı da onlardan biridir. Park bu il iyunun 8-də Prezidentin iştirakı ilə istifadəyə verilib.

Biz də bu günlərdə fotoqrafımızla birlikdə Çəmbərəkənd parkında yaradılan şəraitlə tanış olduq.

Öncə qeyd edək ki, tarixi mənbələrdə Çəmbərəkənd yaşayış məkanının XIX əsrin 40-cı illərində salındığı bildirilir. Məkanın adı "çəmbərə" – dairə, əyri, qövs, halqa və "kənd" komponentlərindən düzəlib, "dairəvarı, qövsvarı kənd" mənasındadır. Yaşayış massivi, həqiqətən də, ətrafa nəzərən bir qədər yüksəklikdə, dairəvi sahədə yerləşir.

"Bakı kəndləri (ensiklopedik lüğət)" kitabında qeyd olunur ki, Çəmbərəkənd Bakıda məşhur ərazi olub. İndiki Nazirlər Kabineti binasının yaxınlığından Şəhidlər xiyabanına qədər ərazini əhatə edib. Ərazinin adı burada məskunlaşmış və əsasən balıq duzlamaq, neft, mazut ixrac etmək üçün çənbərlər hazırlayan ustaların peşəsi ilə əlaqədar yaranıb. Çəmbərəkənddə eyni zamanda müxtəlif qoşqu arabaları, fayton da düzəldilib, sakinləri əsasən heyvandarlıq və əkinçiliklə məşğul olub.

***

Düzü, parka gəlməzdən əvvəl düşünürdüm ki, görəsən, saat 17 radələrində burada istirahət edənlərə rast gələcəyikmi? Çünki sentyabra sayılı günlər qalsa da, havalar çox isti keçir... Lakin parka daxil olduqda xeyli insan gördük. Uşaqlar oyun oynayır, gənclər dostları ilə söhbət edir, böyüklər isə öz ailələri ilə gözəl vaxt keçirirdilər.

Əraziyə illər öncədən bələd olduğum üçün buradakı yeni mənzərə heyrət doğurur.

Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda geniş yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin rahat istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları, söhbətgahlar, köşklər quraşdırılıb. Onu da qeyd edək ki, parkdakı uşaq əyləncə qurğuları, oturacaqlar təbii ağacdan hazırlanıb. Beləliklə, parkda ərazinin adı ilə yanaşı, görkəmində də tarixilik qorunub saxlanılıb.

Ərazisi 4 hektar olan parkda geniş yaşıllıq sahəsi – qazon döşənib, müxtəlif növ ağac, kol və gül əkilib. Yaradılan yaşıl sağlamlıq və təbiətin həyat rəngidir. Həyatımızdan onlarla rəng gəlib keçir, lakin insan övladının yaşıl rəngə olan ehtiyacı bitib-tükənmək bilmir. Yaşıllıq əhatəsində insanı işıqlı fikirlər öz ağuşuna alır, xoş əhval-ruhiyyə, qurub-yaratmaq eşqi güclənir. Çəmbərəkənd parkında da gül bülbülü, bülbül gülü çağırır.

***

Gülnarə Hüseynova ilə həmsöhbət oluruq. Gülnarə xanım Bakının Yasamal rayonunda yaşayır: "Parkda istirahət üçün hər bir şərait yaradılıb. Xüsusilə ailəvi istirahət üçün ayrıca oturacaqlar qoyulub. Bu, çox gözəl addımdır. Parkın yaradılmasında əməyi olan hər kəsə təşəkkür edirəm".

Həmsöhbətimizlə sağollaşıb parkda balacalar üçün ayrılmış meydançaya gəlirik. Meydançada, sözün əsl mənasında, iynə atsan yerə düşməz. Uşaqlar müxtəlif attraksionlarda əylənməkdən yorulmurlar. Meydança ərazisində valideynlərin də istirahəti üçün oturacaqlar qoyulub. Burada iaşə obyekti də fəaliyyət göstərir. Obyektin işçisi Əli Hüseynov bildirir ki, parkda istirahət edən insanlara dondurma, popkorn, müxtəlif növ yeməklər və sərin sular təklif olunur.



Parkda olarkən bəzi sakinlərdən yaradılan şəraitlə bağlı fikirlərini öyrəndik. Sakinlər vaxtilə baxımsız, istifadəsiz qalan bu ərazidə qısa müddətdə belə gözəl parkın yaradılmasına görə ölkə başçısına dərin minnətdarlıqlarını ifadə etdilər.

Parkda xarici turistlərə də rast gəldik. Yeni salınmış park onların da çox xoşuna gəlmişdi. Qonaqlar şəhər mənzərəli terrasda həm paytaxtımızın gözəlliyini seyr edir, həm də xatirə şəkilləri çəkdirərək bu gözəlliyi telefon və foto-aparatlarının yaddaşlarına köçürürdülər.

Heç şübhəsiz, yaşıllıqla yanaşı ərazidə salınmış körpü də parka xüsusi gözəllik verir. Pillələrlə körpünün üzərinə qalxmağa çalışan balaca qızcığaz diqqətimizi çəkir. Ayla adlı balaca özünü çox xoşbəxt hiss edir. Onun anası parka üz tutanlar arasında gənclər çoxluq təşkil edir. Onlar burada dostları ilə söhbətləşir, şəhərin gözəl mənzərəsini və Xəzəri seyr edirlər. Sadiq Abdullayev tələbədir, Xırdalan şəhərində yaşayır. O, vətəndən uzaqda – Polşada təhsil alır. Yay tətilinin son günlərində parka gələrək dostları ilə vaxt keçirir: "İlk dəfədir ki, buraya gəlirəm. Çəmbərəkənd parkı çox xoşuma gəldi. Arzu edirəm ki, ölkəmizdə belə gözəl parkların sayı daha da artsın, insanlar da gəlib asudə vaxtlarını xoş keçirsinlər...".

Yaşıllıqla əhatə olunmuş parkdan xoş əhval-ruhiyyə ilə ayrılırıq. Asudə vaxtlarınızı səmərəli keçirib, şəhərə açılan gözəl mənzərəni seyr edərək Bakının sehrinə düşmək istəyirsinizsə, Çəmbərəkənd parkı sizləri də gözləyir...

**Nurəddin Məmmədli**

## Xatirə təqvimi — 1-5 sentyabr

### Azərbaycan

**1 sentyabr 1900** – Məşhur sirk pəhləvanı, Xalq artisti Rəşid Əliməmməd oğlu Yusifov (1900-1982) Borçalı mahalının (Gürcüstanın Marneuli rayonu) Gorarxı kəndində anadan olub. Moskva Dövlət Sirkinin truppasında çıxış edib.

**1 sentyabr 1920** – Tanınmış tarixçi alim, AMEA-nın müxbir üzvü Mahmud Əliabbas oğlu İsmayılov (1920 – 16.8.2002) Şəkidə doğulub.

**1 sentyabr 1924** – Bakı milyonçusu, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev (1838-1924) vəfat edib. Tağıyev Azərbaycan xalqının maariflənməsi, mədəni inkişafı üçün gördüyü nəcib işlərlə tarixdə iz qoyub. Bakıda ilk teatr binası, müsəlman qızlar üçün ilk məktəb və s. onun adı ilə bağlıdır. Dövrün tanınmış ziyalıları onun köməyi ilə Rusiyada, Avropada təhsil alıblar.

**1 sentyabr 1930** – Nasir, dramaturq, şair Əli Qafur oğlu Səmədli (1930-2006) Göyçay rayonunun Mallı-Şıxlı kəndində anadan olub. Uşaq-gənclər üçün kitabların, səhnə əsərlərinin müəllifidir.

**1 sentyabr 1931** – Tanınmış teatr və kino aktyoru Fazil İdris oğlu Salayev (1931 –16.6.1978) Bakıda doğulub. Akademik Dram, Musiqili Komediya teatrlarında çalışıb, filmlərdə ("Alma almaya bənzər", "Rəqiblər", "Şərikli çörək") yaddaqalan obrazlar yaradıb.

**1 sentyabr 1937** – Əməkdar incəsənət xadimi Siyavuş Məmməd oğlu Şəfiyev (1937 – 24.11.2001) Bakıda anadan olub. Peşəkar sirk ustası, akrobat olub, Moskva və Bakı sirklərində çalışıb. "Əhməd haradadır?", "Uşaqlığın son gecəsi" və s. filmlərdə çəkilib.

**1 sentyabr 1941** – Əməkdar mədəniyyət işçisi, şair, yazıçı-publisist Tofiq Abdin (Tofiq Məhərrəm oğlu Abdinov; 1941 – 24.2.2014) Salyan rayonunun Qırmızıkənd kəndində anadan olub.

**1 sentyabr 1945** – Xalq artisti, sənətşünaslıq doktoru, professor Məcnun Təbriz oğlu Kərim (1945 – 2.10.2013) Zəngəzur mahalının Şəki kəndində doğulub. Azərbaycanın qədim musiqi alətləri haqqında tədqiqatlar aparıb, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində Qədim musiqi alətləri ansamblını yaradıb.

**1 sentyabr 1949** – Əməkdar artist Atabala Osman oğlu Səfərov (1949 – 20.12.2020) Şabran rayonunda doğulub. Musiqili Komediya, Gənc Tamaşaçılar Teatrında çalışıb, televiziya tamaşalarında maraqlı rollar oynayıb.

**1 sentyabr 2009** – Xalq rəssamı Yusif İsmayıl oğlu Hüseynov (15.10.1928 –2009) vəfat edib.

**2 sentyabr 1916** – Əməkdar incəsənət xadimi, rəssam Əyyub Müseyib oğlu Hüseynov (1916-1998) Naxçıvan MR Kəngərli rayonunun Xok kəndində doğulub. Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinin direktoru işləyib. Əsərləri: "Araz sahilində", "Yağışdan sonra", "Çobanlar" və s.

**2 sentyabr 1930** – Əməkdar rəssam Hüseyn Gülbala oğlu Hüseynov (1930-1987) Bakının Buzovna kəndində doğulub. Azərbaycan dilində rəssamlığa dair ilk dərsliklərin müəllifidir.

**2 sentyabr 1949** – Əməkdar incəsənət xadimi, bəstəkar, pedaqoq İsmayıl Soltan oğlu Hacıbəyov (1949 – 25.3.2006) anadan olub. "Firuzə" operası, "Memorial" kantatası, "Naxışlar" fantaziyası və digər əsərlərin müəllifidir.

**2 sentyabr 1949** – Tanınmış teatr rejissoru Yusif Məmmədağa oğlu Əkbərov (1949 – 4.10.2016) Bakıda doğulub. Sumqayıt Dövlət Dram, Musiqili Komediya teatrlarında quruluşçu rejissor və baş rejissor işləyib.

**3 sentyabr 1931** – Xalq rəssamı, professor Oqtay Yusif oğlu Şıxəliyev (1931 – 31.1.2012) Bakıda doğulub. Müxtəlif janrlarda əsərlər yaradıb, Azərbaycanın ilk professional monumentalist rəssamlarından biridir. Tabloları Fransada, Almaniyada şəxsi kolleksiyalarda saxlanılır.

**3 sentyabr 1951** – Görkəmli aktyor, Xalq artisti, Dövlət mükafatı laureatı Yaşar Məmmədsadıq oğlu Nuri (1951 – 22.11. 2012) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Televiziya tamaşalarında, kinoda ("Yol əhvalatı", "Tənha narın nağılı", "Yaramaz", "Bəyin oğurlanması", "Qətl günü") yaddaqalan obrazlar yaradıb.

**3 sentyabr 2021** – Xalq rəssamı, heykəltəraş Arif Şamil oğlu Qazıyev (2.1.1937 – 2021) vəfat edib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**4 sentyabr 2003** – Xalq yazıçısı, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Əzizə Məmməd qızı Cəfərzadə (29.12.1921 – 2003) vəfat edib. S.Ə.Şirvani, A.Səhhət, Xətai və başqa görkəmli şəxsiyyətlər haqqında tarixi romanların müəllifidir.

**4 sentyabr 2021** – Əməkdar mədəniyyət işçisi Nairə Hafiz qızı Sadıxova (21.7.1964 – 2021) vəfat edib. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktor müavini işləyib.

**5 sentyabr 1892** – Tanınmış tarzən, pedaqoq, Xalq artisti Əhmədxan Məmmədrza oğlu Bakıxanov (1892 – 26.3.1973) anadan olub. Azərbaycan Televiziyası və Radiosu Xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri (hazırda kollektiv onun adını daşıyır) olub.

**5 sentyabr 1935** – Xalq artisti, məşhur aktyor Siyavuş Məmmədağa oğlu Aslan (1935 – 27.6.2013) anadan olub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb. Teatrla yanaşı, televiziya tamaşalarında ("Evləri köndələn yar", "Yaşıl eynəkli adam"), kinoda ("Əhməd haradadır?", "Romeo mənim qonşumdur", "Yol əhvalatı", "O dünyadan salam" və s.) yaddaqalan obrazlar yaradıb.

### Dünya

**1 sentyabr 1854** – Alman bəstəkarı və dirijoru Engelbert Humperdink (Engelbert Humperdinck; 1854-1921) anadan olub.

**1 sentyabr 1875** – Amerika yazıçısı Edqar Berrouz (Edgar Rice Burroughs; 1875-1950) anadan olub. Tarzan haqqında romanların, elmi-fantastik janrda "Marslılar" seriyasından əsərlərin müəllifidir.

**2 sentyabr 1852** – Fransız yazıçısı Pol Burje (Paul Charles Joseph Bourget; 1852-1935) anadan olub. Psixoloji romanların müəllifidir: "Şagird", "Qadın ürəyi", "Paris əxlaqından oçerklər".

**2 sentyabr 1926** – Rus aktyoru, SSRİ Xalq artisti Yevgeni Leonov (1926-1994) anadan olub. Filmləri: "Zolaqlıların səfəri", "Uğur centlmenləri", "Mimino", " Payız marafonu" və s.

**3 sentyabr 1883** – Görkəmli rus yazıçısı İvan Sergeyeviç Turgenev (9.11.1818 – 1883) vəfat edib. Əsərləri: "Atalar və oğullar", "Ərəfə", "Zadəgan yuvası", "Rudin" romanları, "Ovçunun qeydləri (hekayələr toplusu)" və s.

**3 sentyabr 1927** – Belarus yazıçısı Ales (Aleksandr) Adamoviç (1927-1994) anadan olub. Əsərləri: "Partizanlar", "Xatın povesti", "Sonuncu məzuniyyət", "Blokada kitabı".

**4 sentyabr 1904** – Fransız kinorejissoru Kristian Jak (Christian-Jaque (Maudet); 1904-1994) anadan olub. Filmləri: "Fanfanzanbaq" (1952, Kann festivalının qalibi), "Qara zanbaq", "Yaşıl saqqal", "Babetta müharibəyə gedir" və s.

**4 sentyabr 1952** – Hind aktyoru Rişi Kapur (1952 – 30.4.2020) anadan olub. Filmləri: "Bobbi", "Qisasçı", "Belə yalançı" və s.

**5 sentyabr 1568** – İtalyan filosofu Tommazo Kampanella (Tommaso Campanella; 1568-1639) anadan olub. Utopik sosializm mövzusunda "Günəş şəhəri" əsərinin müəllifidir.

**5 sentyabr 1912** – Amerika bəstəkarı, avanqard musiqi əsərlərinin müəllifi Con Keyc (John Milton Cage; 1912-1992) anadan olub.

**5 sentyabr 1946** – Əslən iranlı olan Britaniya rok müğənnisi, "Queen" qrupunun lideri Freddi Merkuri – əsl adı Fərrux Balsara; 1946-1991) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Türk dünyası ilə Qətər arasında mədəni əlaqələr müzakirə edilib

Dohada səfərdə olan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Günay Əfəndiyeva Qətərin dövlət naziri, Qətər Milli Kitabxanasının prezidenti Həməd bin Əbdüləziz əl-Kuvari ilə görüşüb.

Görüşdə Qətərin Azərbaycanla və ümumilikdə Türk dünyası ilə mədəni əlaqələrinin perspektivləri müzakirə olunub.

Fondun fəaliyyəti, həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verən Günay Əfəndiyeva Azərbaycanın işğaldan azad olunmuş ərazilərində dağılmış tarixi abidələrin, mədəni irs nümunələrinin bərpasından bəhs edib.

Qətərli nazir türk dövlətləri ilə mədəni əməkdaşlıq kontekstində Qətər Milli Kitabxanası ilə sıx əlaqələrin qurulmasının zəruriliyini qeyd edib, bu sahədə birgə layihələrin həyata keçirilə biləcəyini bildirib. Fond ilə Qətər Milli Kitabxanası arasında imzalanacaq memorandumun və gələcək əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov iştirak edib.

G.Əfəndiyeva Qətər Milli Kitabxanası ilə tanış olub.



### "Mahmud və Məryəm" filmi Dohada nümayiş olunub

Qətərin Dram Teatrında Azərbaycanın Xalq yazıçısı Elçinin eyniadlı romanı əsasında çəkilmiş "Mahmud və Məryəm" filmi nümayiş olunub.

Ekran əsəri Azərbaycan və Türkiyənin ilk müştərək layihəsi kimi 2013-cü ildə rejissor Mehmet Ada Öztekin tərəfindən çəkilib.

Filmin nümayişi Azərbaycanın Qətərdəki Səfirliyinin təşəbbüsü ilə baş tutub.

Mərasimdə Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türkiyənin Qətərdəki səfiri Mehmet Mustafa Göksu, digər diplomatlar və Qətərdəki Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

Ekran əsəri böyük maraqla qarşılanıb.

Ərəb dilinə dublyaj edilən, ərəb ölkələrində ilk dəfə Qətərdə nümayiş olunan filmdə əsas rolları Aras Bulut İynemli və Eva Dedova ifa ediblər.

# TÜRKSOY-un "Rəssamlar görüşü" başa çatıb

*əvvəli səh. 1-də*

Qeyd edək ki, TÜRKSOY-un 22-ci "Rəssamlar görüşü"ndə Azərbaycanı dörd fırça ustası təmsil edib.

Sərgidən bir gün öncə isə layihənin iştirakçıları qədim Amasra şəhərinə (Bartin vilayəti) səfər ediblər. Amasra Safranbolu ilə qardaşlaşmış bələdiyyə olduğu üçün Türk dünyası rəssamlarını qonaq dəvət edib.

Rəssamları salamlayan Amasra Bələdiyyəsinin başqanı Recai Çakır bölgədə həyata keçirilən mədəniyyət layihələri barədə məlumat verib.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən "Rəssamlar görüşü" layihəsinin koordinatoru, Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı qurum adından xatirə hədiyyələrini bələdiyyə başqanına təqdim edib.

Görüşdən sonra rəssamlar 3 min ilə yaxın yaşı olan, memarlığı və təbii gözəllikləri ilə tanınan Amasranın tarixi yerlərini gəziblər.

Avqustun 27-də TÜRKSOY-un 22-ci "Rəssamlar görüşü"nün bağlanış mərasimində Safranbolu Bələdiyyəsinin başqanı Elif Köse və layihənin koordinatoru Elçin Qafarlı çıxış ediblər. Çıxışlardan sonra iştirakçı rəssamlara sertifikatlar təqdim edilib və sərgi açılıb.




Layihədə bu dəfə Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Qaqauziya (Moldova), Tatarıstan, Çuvaşiya, Saxa-Yakutiya (Rusiya Federasiyası), Şimali Makedoniya və Kosovodan ümumilikdə 23 rəssam iştirak edir. Safranbolu Mədəniyyət Mərkəzində sentyabrın 5-dək davam edəcək sərgidə onların 69 əsəri nümayiş olunur.

Qeyd edək ki, TÜRKSOY 23-cü "Rəssamlar görüşü"nü gələn il Azərbaycanda – Şuşada keçirmək niyyətindədir. Şuşa 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçildiyi üçün layihəyə ev sahibliyi etməyə ən uyğun məkandır.

**Mehparə Sultanova**
**Ankara**

# Əfqanıstanda kinoya "Yeni baxış"

### "Taliban" dövründə ilk festival

Əfqanıstanda "Taliban" rejimi hakimiyyətə gəldikdən bir il sonra açılan bəzi kinoteatrlarda əfqan filmləri nümayiş olunmağa başlanıb.

"Taliban" rejimi dövründə ilk dəfə Əfqanıstan Radio və Televiziya Korporasiyası və yerli kino assosiasiyaları tərəfindən "Yeni Baxış" Qısa Film Festivalı təşkil edilib. Festival paytaxt Kabildəki iki kinoteatrda keçirilir.

Festival çərçivəsində əfqan rejissorların çəkdiyi 30-dan çox qısametrajlı və sənədli film tamaşaçılara təqdim olunur. Filmlərdə daha çox sosial cəhətdən zəif qrupların üzləşdiyi problemlərə və dini mövzulara toxunulur.




Dörd gün davam edəcək festivalda münsiflər heyəti "Ən yaxşı ssenari", "Ən yaxşı rejissor" və "Ən yaxşı sənədli film" kateqoriyaları üzrə seçimlər də edəcəklər.

# 44-cü Moskva kinofestivalında kasadlıqdır

26 avqust – 2 sentyabr tarixlərində 44-cü Moskva Beynəlxalq Kinofestivalı keçirilir. "Rossiya" kinoteatrında keçirilən açılış mərasimində çıxış edən RF mədəniyyət naziri Olqa Lyibimova Qərb ölkələrinin Rusiyaya qarşı apardığı "mədəni ləğvetmə" kampaniyasına rəğmən festivala gələn qonaqlara təşəkkürünü bildirib. Qeyd edib ki, əsl mədəniyyəti, o cümlədən kinonu ləğv etmək mümkün deyil.

Festivalın prezidenti, rejissor Nikita Mixalkov da bütün iştirakçılara, eləcə də beynəlxalq münsiflər heyətinin üzvlərinə minnətdarlıq edib.

Builki jüriyə Rusiyanın Xalq artisti, Moskvadakı Millətlər Teatrının bədii rəhbəri Yevgeni Mironov sədrlik edir. Münsiflər heyətində həmçinin Cənubi Afrika Respublikasından prodüser Tandi Devids, İrandan rejissor Rəsul Sadrameli, rusiyalı kinorejissor Andrey Kravçuk və Türkiyə-Rusiya sənətçisi kimi təqdim olunan kinooperator Hayk Kirakosyan (2000-ci ildən İstanbulda yaşayır, Türkiyə Kinooperatorlar Gildiyası idarə heyətinin üzvüdür) yer alıblar.



Müsabiqə və müsabiqədənkənar proqrama ümumilikdə 200-dən çox film daxil edilsə də, Moskva kinofestivalı tarixinin ən kasad dövrünü yaşayır. Ukraynadakı müharibə ilə bağlı Rusiya ilə mədəni əlaqələri də kəsən Qərb ölkələri festivala qatılmayıb. Festivalda Avropadan yalnız Rumıniya və Serbiya kinosu təmsil olunur. Bundan əlavə, Latın Amerikası və Cənubi Koreya kinosu (məşhur rejissor Pak Çxan Ukun "Çıxıb getmək qərarı" filmi festivalın bağlanışını edəcək) nümayiş olunur. Əsas müsabiqə proqramında 3-ü Rusiya filmi olmaqla 13 ekran əsəri yer alıb.

Xatırladaq ki, 21-28 aprel tarixində keçirilməsi nəzərdə tutulan 44-cü Moskva Beynəlxalq Kinofestivalı daha sonra ilin ikinci yarısına təxirə salınmışdı. Məlumatda qeyd olunurdu ki, müxtəlif ölkələrdən kino xadimləri mövcud vəziyyətdə Moskvaya gələ bilməyəcəklərini bildiriblər.

1972-ci ildə Beynəlxalq Kinoprodüserlər Assosiasiyaları Federasiyası (FIAPF) tərəfindən "A" kateqoriyalı status (akkreditasiya) alan Moskva Beynəlxalq Kinofestivalı 2017-ci ilədək ənənəvi olaraq iyun ayında, 2018-ci ildən isə aprel ayında keçirilib. 2020-ci ildə pandemiya səbəbindən vaxtı oktyabr ayına dəyişdirilmişdi. Festivalın baş mükafatı qızıl "Müqəddəs Georgi" heykəlciyidir.

**V.Kamal**

# Dünyanın ən yaxşı aviaşirkətləri

### "Sinqapur Hava Yolları" yenə birincidir

ABŞ-ın "Travel+Leisure" səyahət jurnalı oxucularının qiymətləndirmələrinə əsasən, "Ən yaxşı beynəlxalq hava yolları şirkətləri"nin növbəti siyahısı açıqlanıb.

Siyahı sərnişinlərin təhlükəsizliyi və rahatlığı, uçuş zamanı xidmət, yemək və müştəri xidmətlərinə görə tərtib edilib.

Səyahət jurnalının oxucularına görə, ilk üçlükdə "Sinqapur Hava Yolları", "Qatar Airways" və "Emirates" aviaşirkətləri yer alıb. İlk onluqda həmçinin "Türk Hava Yolları", "Korean Air", "La Compagnie" (Fransa), "Air New Zealand", "Japan Airlines", "All Nippon Airways" (Yaponiya), "Cathay Pacific Airways" (Honkonq) qeyd olunub.



Qeyd edək ki, "Sinqapur Hava Yolları" 27 ildir sözügedən reytinqdə birinciliyi əldə saxlayır.

Xronoqraf

# Tarixdə bu gün

### Zamanın səhifələrində qalan olaylar, faktlar...

**239 il əvvəl...**

**3 sentyabr 1783-cü ildə** Amerika Birləşmiş Ştatlarının müstəqillik müharibəsi başa çatıb. Parisdə Britaniya və ABŞ nümayəndələri arasında sülh sazişi imzalanıb. Sazişə əsasən, Britaniya Şimali Amerikadakı keçmiş müstəmləkələrinin (13 ştat) müstəqilliyini rəsmən tanıyıb. Bunun ardınca Amerikada müstəmləkələri olan Fransa, İspaniya və Niderland da analoji addımı atıblar.

**218 il əvvəl...**

**4 sentyabr 1804-cü ildə** İrəvan xanlığının Qəmərli kəndi (indiki Ermənistanda Artaşat qəsəbəsi) yaxınlığında Rusiya-İran müharibəsinin (1804-1813) növbəti döyüşü olub. Ruslar məğlub olaraq geri çəkiliblər. Bundan öncə Üçmüədzin döyüşündə (27 iyul) də İran qoşunları qalib gəlmişdi. Bununla belə, Rusiya 1805-ci ildə müharibədə üstünlüyü ələ keçirdi, Şəki və Qarabağ xanlıqlarını özünə birləşdirdi.

**193 il əvvəl...**

**2 sentyabr 1829-cu ildə** Rusiya-Osmanlı müharibəsinin (1828-1829) yekunlarına dair Ədirnə müqaviləsi imzalanıb. Osmanlı dövləti Ahalsıx bölgəsinin (indiki Gürcüstanın Samtsxe-Cavaxeti regionu) bir hissəsini Rusiyaya güzəştə gedib və həmin əraziyə cənub-şərqi Anadoludan erməni əhalinin köçürülməsinə razılıq verib. Köçürülən ermənilər sonradan Tiflis, İrəvan və Naxçıvanda da yerləşdirildi.

**103 il əvvəl...**

**1 sentyabr 1919-cu ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti ölkədə ilk ali təhsil müəssisəsinin – Bakı Dövlət Universitetinin yaradılması barədə qərar qəbul edib.

**83 il əvvəl...**



**1 sentyabr 1939-cu ildə** faşist Almaniyası Polşaya hücum edib, İkinci Dünya müharibəsi başlayıb. Sentyabrın 3-də Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 70-dən çox ölkənin faktiki iştirak etdiyi və 6 il sürən müharibədə ümumilikdə 62 milyon insan həlak oldu.

**77 il əvvəl...**

**2 sentyabr 1945-ci ildə** Yaponiyanın SSRİ və ABŞ qarşısında kapitulyasiyasından sonra İkinci Dünya müharibəsi rəsmən başa çatıb. ABŞ-ın "Missuri" gəmisində imzalanan kapitulyasiya haqqında aktına əsasən, Yaponiyanın işğalı altında olmuş Koreya yarımadası 38-ci paralel üzrə ABŞ (cənub) və SSRİ (şimal) arasında bölünüb. Mançuriya Çinə, Kuril adaları SSRİ-yə verilib. ABŞ Yaponiya ərazisində hərbi baza saxlamaq hüququ əldə edib.

**73 il əvvəl...**

**1 sentyabr 1949-cu ildə** Sovet İttifaqında (o cümlədən Azərbaycan SSR-də) icbari 7 illik təhsilə keçid başlayıb. Sovet hökuməti 1931-ci ildə icbari ibtidai təhsil (3 illik) barədə qərar qəbul etmişdi. 1959-cu ildə icbari 8 illik təhsilə (natamam orta), 1966-cı ildə icbari 10 illik təhsilə (tam orta) keçid təmin olundu.

**51 il əvvəl...**

**3 sentyabr 1971-ci ildə** Qətər müstəqilliyini elan edib. XVI əsrdən 1916-cı ilədək Osmanlı imperiyasının tərkibində olan Qətər daha sonra Britaniyanın protektoratlığına keçmişdi.

**50 il əvvəl...**

**5 sentyabr 1972-ci ildə** Münxendə (AFR) keçirilən Yay Olimpiadasında fələstinlilərin "Qara sentyabr" təşkilatı İsrail idmançılarına qarşı terror aktı həyata keçirib. 2 idmançını öldürüb, 9 nəfəri girov götürən terrorçular ertəsi gün (almanların uğursuz xilasetmə əməliyyatı zamanı) girovların hamısını güllələyiblər. Atışmada 5 terrorçu öldürülüb, 3-ü həbs olunub.

**31 il əvvəl...**

**3 sentyabr 1991-ci ildə** Naxçıvan Ali Məclisinin fövqəladə sessiyasında təşkilati məsələyə baxılıb. Deputatların yekdil qərarı ilə xalq deputatı Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçilib. Heydər Əliyev 1993-cü ilin iyununadək muxtar respublikaya rəhbərlik etdi.

**30 il əvvəl...**

**1 sentyabr 1992-ci ildə** Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik münasibətlər qurulub.

**29 il əvvəl...**

**31 avqust 1993-cü ildə** Ermənistanın silahlı qüvvələri Azərbaycanın Qubadlı rayonunun mərkəzini və bir sıra kəndlərini işğal ediblər. Sonrakı günlərdə rayonun bütün ərazisi (802 kv km) işğal olundu. 2020-ci ilin 44 günlük Vətən müharibəsində Qubadlı şəhəri (26 oktyabr) və rayonun 90-dan çox kəndi işğaldan azad edildi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2447
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641